www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 iyun 2016-cı il Çərşənbə axşamı № 129 (6450) Qiymәti 60 qәpik

Xəbər

## Bir gündə üç uşaq suda batıb öldü

yazısı səh.14-də

Gündəm

### Rəsul Quliyevin tərəfdarları hərəkətə keçib?



**Eks-spikerdən növbəti mesaj:** "Start komandası verməmişəm"; lideri sayıldığı partiya onu qarşılamağa hazırlaşır...

yazısı səh.5-də

### Türkiyə Azərbaycana yeni səfir təyin etdi

yazısı səh.2-də

### "Sovetski" də söküntü də, narazılıq da bitmir

yazısı səh.3-də

### Masallıda Sənaye Məhəlləsi yaradılacaq

yazısı səh.2-də

### Hacıbala Abutalıbov keçmiş deputatla birgə qanunsuz əməllərdə suçlanır

yazısı səh.4-də

### Amerikadakı qətliamın şok detalları

yazısı səh.6-da

### Rusiya Qarabağın "açar"ını verəcəkmi?

yazısı səh.11-də

### Hillari Klintonun Bakıdakı tanışından və demokrat siyasətçidən açıqlamalar

yazısı səh.6-da

*Əhməd Oruc:*

### "Təsərrüfat planlarım müxalifətin yol xəritələrindən daha dəqiqdir"

yazısı səh.12-də

**Ramazan ayının 8-ci günü**

İftar 20.29. İmsaq 03.08-dək (QMİ)

8-ci günün duası: "İlahi, bu gün məni yetimlərə rəhm edən, Sənin yolunda yoxsullara yemək bəxşiş edənlərdən və salamı açıq-aydın şəkildə verənlərdən qərar ver! Məni Öz nemətinlə kəramətli və yaxşı insanlarla yoldaş et! Ey arzu edənlərin Sığınacaq və Pənahı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Ermənistanda nasist sevgisi: ölkəmiz üçün şans

# İRƏVANIN HEYKƏL YANLIŞI, BAKININ UDUŞU - İSRAİL AZƏRBAYCANA YENİ SİLAHLAR VERƏCƏK

Faşist cəlladına İrəvanda abidə ucaldılması ətrafında qalmaqal böyüyür; Rusiya əleyhinə etirazlar Kremlin öz müttəfiqinə qəzəbini artırıb; olay yəhudi toplumunda da etiraz doğurub; erməni analitik: "Moskva Qarabağı Bakıya qaytarmaq üçün səbəb axtarır..."




yazısı səh.9-da

## Eldar Mahmudov haqda müdhiş xəbərlər

"Əlində 2800-dən çox seks-şantaj videosu var" - iddia; sabiq nazirin hətta ölkədən getməsinə şərait yaradıldığı bildirilir

yazısı səh.3-də



### Akif Çovdarovla işbirliyində suçlanan sahibkar Famil Xəlilov "Yeni Müsavat"a danışdı

yazısı səh.4-də



### Şahbaz Xuduoğlu "Qanun" nəşriyyatındakı "bomba əməliyyatı"nın detallarından danışdı

yazısı səh.10-da



*İsa Qəmbər:*

### "Milli Məclis sədrliyindən istefam komanda qərarı idi"

yazısı səh.7-də

Elxan Mehdiyev

YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016



## Prezident Masallıda Sənaye Məhəlləsi yaradılmasına dair sərəncam verdi

**Azərbaycan prezidenti İlham Əliyev Masallı Sənaye Məhəlləsinin yaradılması haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədi ilə Masallı Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı və emalı müəssisələri, habelə xidmət müəssisələri yaradılacaq.**

Masallı Sənaye Məhəlləsinin idarə olunmasını, inkişafını, fəaliyyətinin təşkilini və tənzimlənməsini "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti həyata keçirəcək.

Nazirlər Kabinetinə Masallı Sənaye Məhəlləsinin fəaliyyəti üçün Masallı rayonu ərazisində 10 hektar torpaq sahəsinin ayrılması və icarəyə vermək hüququ ilə "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin daimi istifadəsinə verilməsi ilə bağlı 3 ay müddətində zəruri tədbirlər görmək və bu barədə prezidentə məlumat vermək tapşırılıb. İqtisadiyyat Nazirliyinə isə Masallı Sənaye Məhəlləsinin xarici və daxili infrastrukturunun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görmək həvalə olunub.

## Türkiyə Azərbaycana yeni səfir təyin etdi

**Türkiyə bir sıra ölkələrdəki və beynəlxalq təşkilatlardakı səfirlərini dəyişdirib. APA-nın "Hürriyet"ə istinadən verdiyi xəbərə görə, yeni böyükelçilər qərarnaməsinə əsasən dəyişiklik baş verən səfirliklər arasında Türkiyənin Azərbaycandakı səfirliyi də var. Hazırkı səfir İsmayıl Alper Coşkunun yerinə bu vəzifəyə Erkan Özoral təyin olunub. E. Özoral bundan əvvəl Türkiyə XİN-in baş direktor müavini vəzifəsində çalışıb.**

Türkiyənin Azərbaycandakı səfirliyinin müstəşarı (aparat rəhbəri) Meral Barlaş isə Argentinaya səfir göndərilib.

## Qardaş ölkədə daha bir terror törədildi - 9 yaralı

**Türkiyənin Tunceli vilayətinin Ovacık bölgəsində ədliyyə məhkəməsi binası qarşısında partlayıcı qurğu olan nəqliyyat vasitəsi partladılıb. APA-nın "Milliyyət"ə istinadən verdiyi məlumata görə, hadisə nəticəsində 9 nəfər yaralanıb.**

Yaralananlardan ikisi polis, yeddisi isə mülki şəxsdir. Onlar dərhal xəstəxanaya çatdırılıblar və həyati təhlükələri yoxdur.

Hadisə yerində olan müşahidə kameralarından görünür ki, PKK terrorçusu park etdiyi nəqliyyat vasitəsindən düşərək oradan uzaqlaşıb. Nəqliyyat vasitəsi uzaqdan idarə olunan pult vasitəsi ilə partladılıb.

## Dolların bahalaşması davam edir

**Azərbaycan Mərkəzi Bankı (AMB) iyunun 14-ə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi iyunun 14-ə 1,5120 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, bu gün dollar 1,5114 manata bərabər olub.**

## Azərbaycanda 20 yaşlı gənc ağlagəlməz şəkildə öldü

**Şamaxıda bədbəxt hadisə ölümə səbəb olub. Rayonun Polis İdarəsindən ANS PRESS-ə verilən məlumata görə, şəhərdəki mənzillərdən birində yaşayan 1996-cı il təvəllüdlü İslam Rəsul oğlu Allahverdiyevin nəfəs borusunda alma qalıb. Nəfəs ala bilməyən 20 yaşlı gənc boğularaq dünyasını dəyişib.**

Faktla bağlı Şamaxı rayon prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# DTX-dan qızıl əməliyyatı: məmurlar həbs edildi

**Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları Goranboy rayonunda böyük əməliyyat keçirib. Rayon sakinlərindən Aznyus.az-a verilən məlumata görə, yerli polisin də iştirak etdiyi əməliyyatda dövlətin təbii sərvətini ələ keçirməyə çalışan bir neçə məmur saxlanılıb.**



Belə ki, rayonun Tapqaraqoyunlu kəndində yerləşən, aprel döyüşlərinə qədər neytral zonada qalan Qızıl Kurqan deyilən ərazidə gizli qazıntı işləri aparan şəxslər bu ayın 11-dən 12-ə keçən gecə ifşa olunub. Məlum olub ki, cəbhədəki son döyüşlərdən sonra tam nəzarətimizə keçən həmin ərazi bir sıra yerli məmurlar tərəfindən neçə günlərdir ki, ekskavatorlarla qazılır. Güman edilir ki, həmin ərazidən qızıl çıxarılırmış.

Məlumata görə, əməliyyat vaxtı əraziyə nömrəsiz avtomobillə gəlmiş icra başçısının Fuad Əliyev adlı köməkçisi, eləcə də 22 AA 010 xidməti avtomobillə orada olan rayon Su-Kanal İdarəsinin rəis müavini Misir Ələkbərov və bir neçə başqa vəzifəli şəxslər DTX əməkdaşları tərəfindən saxlanılıb. Hazırda ərazidə axtarış tədbirləri aparılır. Sakinlərin bildirdiyinə görə, qızıl kurqanında qazıntı işlərinə yüksək vəzifəli şəxslər, eləcə də iş adamları rəhbərlik edirmiş. Saxlanılan məmurlar isə həmin adamların yaxın qohumlarıdır.

Son məlumatlara görə, Goranboy rayon icra başçısının müdaxiləsindən sonra F.Əliyev sərbəst buraxılıb.

Rayon İcra Hakimiyyəti məsələylə bağlı məlumatsız olduqlarını, başçının qızıl qalmaqalında adı hallanan Fuad Əliyev adlı köməkçisinin isə bir neçə gündür işə gəlmədiyini bildiriblər.

Fuad Əliyev məsələylə bağlı verdiyi açıqlamasında bildirib ki, xəstə olduğu üçün işə çıxmır: "Mən bir neçə gündür ki, xəstəyəm. Ona görə işə getmirəm. Belə bir əməliyyatdan xəbərsizəm".

## Geni dəyişdirilmiş çay və taxıl məhsullarının Azərbaycana gətirilməsi qadağan edilir

**Geni dəyişdirilmiş çay və taxıl məhsullarının ölkəyə gətirilməsi qadağan edilir.**

Milli Məclisdən APA-ya verilən məlumata görə, bununla bağlı "Çayçılıq haqqında" və "Taxıl haqqında" qanuna əlavə və dəyişiklik təklif edilir.

"Çayçılıq haqqında" qanununa təklif edilən 10.3-cü maddəyə görə, "Çay və çay məhsullarının istehsalında və dövriyyəsində genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının istifadəsinə yol verilmir".

Qanunun 8.3-cü maddəsinə təklif olunan bəndə görə də "Genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilərək istehsal olunmuş çay və çay məhsullarının Azərbaycan Respublikasına idxal edilməsinə yol verilmir".

"Taxıl haqqında" qanuna təklif edilən 6.8-ci maddədə isə qeyd olunur ki, "Taxıl məhsullarının istehsalında və dövriyyəsində genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının istifadəsinə yol verilmir".

Qanuna təklif olunan 11.5-ci maddəyə görə isə, "Genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilərək istehsal olunmuş taxıl məhsullarının Azərbaycan Respublikasına idxal edilməsinə yol verilmir".

Hər iki layihənin qeyd hissəsində deyilir ki, qadağanın pozulması Cinayət və İnzibati Xətalar məcəllələri ilə məsuliyyət yaradacaq.

Layihə Milli Məclisin növbədənkənar sessiyasının iyunun 14-də keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.





## Şamaxının millət vəkili iftar süfrəsi açdı

**Şamaxının millət vəkili Elxan Süleymanov iyunun 12-də Cümə məscidində iftar süfrəsi təşkil edib. Möminlərin, ziyalıların, kasıb təbəqə insanların dəvət aldığı iftar süfrəsində çıxış edən Elxan Süleymanov Ramazan ayının fəzilətindən, ənənələrindən bəhs edib.**

## Şəhid ailəsinin kredit borcu ilə bağlı problem həll olunub

### Aydın Mirzəzadə: "Kredit təşkilatından dedilər ki, bu ailənin artıq onlara heç bir borcu yoxdur"

**Aprel döyüşlərində 17 erməni əsgərini öldürən Mingəçevir şəhidi Adil Adilzadənin adına olan kreditə görə ailəsinin məhkəmə ilə hədələnməsi barədə xəbər vermişdik. Yazı dərc olunduqdan dərhal sonra Mingəçevirin deputatı, YAP Siyasi Şurasının üzvü Aydın Mirzəzadə redaksiyamıza müraciət etdi.**

Deputat musavat.com-a bu məsələnin artıq günlər öncədən həll olunduğunu bildirdi: "Ötən həftə Mingəçevirdən olan 3 şəhiddən birinin atasının banka borcunun olması ilə bağlı xəbər çıxdı. Dərhal Mingəçevir İcra Hakimiyyəti ilə əlaqə saxladım. Məsələni tam aydınlaşdırdım. Məlum oldu ki, bu bank deyil, kredit təşkilatıdır. Bunların verdiyi vəsait əsas kapital deyildi. Qanunla xaricdən götürülmüş vəsaitlə kredit təşkilatı yaradıblar. Aydın məsələdir ki, vəsait bunların olmadığına görə silə bilməzlər. Onların kreditin şəhidin adına olması ilə bağlı ilkin məlumatları olmayıb. Mən kredit təşkilatı ilə danışdım. Məsələni biləndən sonra dedilər ki, artıq şəhid ailəsinin onlara heç bir borcu yoxdur. Məbləğ bir o qədər də çox deyildi. Bundan sonra kredit borcuna görə şəhid ailəsini heç kəs narahat etmədi.

Mənə xoş gəldi ki, bu məsələ ilə bağlı danışıq aparanda kredit təşkilatından kömək etmək istədiklərini bildirdilər. Şəhid atasının məhkəməyə veriləcəyi barədə deyilənlərin heç bir əsası yoxdur. Bir faktı da qeyd edim ki, Mingəçevirdən olan gizir Rəhman Tağıyev aprelin 2-də ilk döyüşdə başından ağır yaralanıb və hazırda komadadır. Onun bir banka kredit borcu, digər banka isə ipoteka borcu var idi. Hər iki bankla danışdım. Birinci bank ona kreditini keçdi. İpoteka Fondu isə bildirdi ki, həmin ailənin ödənişləri artıq dayandırılıb. Onlar müalicənin sonunu gözləyirlər. Yaralı gizir hazırda müalicə olunur. Onun müalicəsinin sonunda məsələ yaralı gizirimizin xeyrinə həll olunacaq. Ümumən danışıq apardığım bankların məsələni həll etməkdə maraqlı olduqlarını gördüm. Mingəçevir İcra Hakimiyyətindən xahiş etdim ki, şəhid ailələri ilə bağlı bir problem yaranarsa, dərhal mənə xəbər versinlər. Aprel ayında 3 mingəçevirli şəhid oldu. Onların hər üçü yüksək səviyyədə doğma rayonlarında dəfn edildilər. Hər üçünün yasında iştirak etdim. Onların ailələrində telefonum var. Üç şəhid ailəsi də istədikləri vaxt mənə zəng edirlər. Onların problemləri icra hakimiyyətinin diqqətindədir".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov haqda ziddiyyətli xəbərlər yayılmaqdadır. Sabiq nazirin tutulduğu, ölkədən getdiyi, əlində minlərlə seks videoların olması barədə xəbərlər bir-birini əvəzləyir. Amma Eldar Mahmudovun bu gün qanun qarşısında statusu bilinmir. Onu tutduğu vəzifədən azad ediblər, amma barəsində verilən qərar haqda dəqiq məlumat yoxdur.**

# Eldar Mahmudov haqda müdhiş xəbərlər

## “Əlində 2800-dən çox seks-şantaj videosu var” iddiası; sabiq nazirin hətta ölkədən getməsinə şərait yaradıldığı bildirilir

Ümumiyyətlə, belə tədbirin seçilib-seçilmədiyi bilinmir. Maraqlı məqam budur ki, “MTN işi” üzrə istintaqa cəlb edilən digər sabiq vəzifəlilərin statusları bəllidir. Onlar təqsirləndirilən və zamində olan şəxsdirlər. Sabiq nazir isə ictimaiyyət üçün sadəcə, istefaya göndərilmiş şəxsdir. Odur ki, MTN çetesinin başında dayanmış şəxs haqda ən müxtəlif səpkili məlumatlar yayılmaqdadır.

**“Eldar Mahmudovun əlində 2800-dən çox seks videoları var...”**

Eldar Mahmudovun rəhbərlik etdiyi quldur dəstəsi təkcə sahibkarları soyub-talamayıb, eyni zamanda ölkənin tanınmış şəxsləri barədə şantaj xarakterli videomateriallar toplayıb. Bu haqda virtualaz.org-a MTN-in keçmiş zabiti Ərəstun Oruclu məlumat verib. Eldar Mahmudovun qruplaşmasının əlində tanınmış və imkanlı şəxsləri, ictimai fəalları və digərlərini şantaj etmək üçün gizli çəkilişlərin olduğu haqda əvvəllər də dəfələrlə yazılıb. Lakin indi keçmiş MTN zabiti Mahmudovun “videoteka”sındakı CD-lərin konkret sayını açıqlayır. Bəs bunlar hazırda Mahmudovun və adamlarının əlində olan videolardır, yoxsa MTN-dəki qruplaşmanın ləğvindən sonra müsadirə edilənlərdir?

**Məlumdur ki, Eldar Mahmudovun, Akif Çovdarovun və digərlərinin evində aparılmış axtarışlar zamanı həm də şantaj xarakterli videolardan ibarət çoxsaylı disklər, elektron daşıyıcılar müsadirə olunmuşdu. Ərəstun Oruclu açıqlamasında deyir ki, 2800 rəqəmi ona mötəbər mənbələrdən verilib, lakin başqa detallar haqda danışa bilməz. Çünki əlavə məlumatı yoxdur.** “Bunlar jurnalistlər, ictimai fəallar, tanınmış şəxslər, o cümlədən yüksək vəzifəli məmurlar və ailə üzvləri barədə gizli videoçəkilişlərdir. Lakin həmin videoların hazırda harada olduğu haqda məndə məlumat yoxdur. Mənə verilən məlumat belədir ki, bunların əlində həmin sayda seks videoları olub, başqa təfərrüatları bilmirəm. Yəqin ki, bu, ciddi araşdırma mövzusu ola bilər” deyə, keçmiş MTN zabiti bildirib.



Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudov haqqında cinayət iddiaları günü-gündən artır. Vəzifədə olduğu dövrdə icra başçılarından, yüksək ranqlı məmurlardan, iş adamlarından haqq tələb etməsinə dair faktlar media tərəfindən cəmiyyətə çatdırılıb. Əlində olan imkanlar hesabına ayrı-ayrı məmurlardan haqq tələb edən keçmiş MTN rəhbərliyi gücü çatmadığı adamları müxtəlif üsullarla gözündən salmaqla təhdid edirmiş.

Digər iddialardan biri isə Eldar Mahmudovun icra başçılarını təhdid etməsi ilə bağlıdır. Verilən məlumatlara görə, Eldar Mahmudovun hər icra başçısı üzərində müəyyən “haqq”ı olub. İddia olunur ki, keçmiş MTN şefi hər ilin rübündə icra başçılarından haqq alırmış, çatdırılmadığı zaman isə həmin şəxslər təzyiq və təhdidlərə məruz qalırmış.

**Eldar Mahmudovun ölkədən çıxışına icazə verilib?**

**Eldar Mahmudovun ölkədən çıxışına icazə verilib. Bu xəbəri isə politika.az yayıb. Sayt yazır ki, Eldar Mahmudovun komandası ifşa olunsa da, özünü həbs etmirlər, ona dəyib-toxunan yoxdur. Bunu sabiq nazirlə əldə olunan razılaşma ilə əlaqələndirirlər:**

“Hakimiyyət dairələri Eldar Mahmudovdan mənimsədiyi 10 milyard dolları geri tələb edib. Həmin pul ödənildikdən sonra barəsində qərar veriləcəyini vurğulamışdılar. Amma gələn son xəbərə görə, Mahmudovun artıq hakimiyyətlə anlaşdığı deyilir. Məlumatda vurğulanır ki, sabiq nazir tələb olunan məbləği ödəyib. Və ölkədən çıxışı üçün icazə istəyib. Hakimiyyət dairələri də bunun yaxın vaxtlarda reallaşdıracaqları barədə vəd veriblər. Belə ki, ən yüksək səviyyədə müzakirə aparıldıqdan sonra bununla bağlı qərar veriləcəyi gözlənilir. Belə bir versiya var ki, Mahmudovun ölkədən çıxmasını onun səhhəti ilə əlaqələndirəcəklər. Belə ki, o, səhhətində problem yarandığı və xaricdə müalicə alması lazım gəldiyi bəhanəsi ilə ölkədən çıxarılacaq. Əvəzində isə Mahmudov bundan sonra hakimiyyət əleyhinə danışmayacaq. Üstəlik, əlində olan arxivini də iqtidar mənsublarına verəcək. Əks təqdirdə, nəinki ölkədən çıxa biləcək, ümumiyyətlə, həbs olunub, ən ağır formada cəzalandırılacaq”.

**❑ E.HÜSEYNOV**

# “Sovetski”də söküntü də, narazılıq da bitmir

## “Abid Şərifova yalan məlumat verilib” iddiasına rəsmi şəxs nə dedi?

**İyunun 13-də “Sovetski” sakinlərinin bəzilərinə evlərini tərk etmək üçün verilən vaxt bitib. “Yeni Müsavat”ın əməkdaşı söküntü olan məhəllədə olub. Müşahidə etdik ki, “Sovetski”də söküntü işlərində heç bir fasilə yaranmayıb. Ancaq sakinlərin mənzillərini kütləvi şəkildə sökmürlər də. Ərazidə çalışanlar bildirdilər ki, yalnız müqavilə əsasında razılığa gəlinmiş sakinlərin mənzilləri sökülür. Bu mənzillər də artıq müqaviləyə görə onların mülki sayılmır. Çünki həmin sakinlərə dövlət tərəfindən nəzərdə tutulan kompensasiya ödənilib.**

Lakin məhəllənin Abbas Mirzə Şərifzadə küçəsində yaşayan sakinlərinin bir qismi evlərini heç də tərk etmək istəməyib, hər hansı bir müqaviləni də imzalamaq fikrində deyillər. Həmin küçədə əsasən tarixi əhəmiyyətli tikililər yerləşir.

Abbas Mirzə Şərifzadə 45-də yerləşən Faiq Əliyevə məxsus barəsində çox danışılan evin uçurulmasına da başlanılıb. F. Əliyev bildirdi ki, bu işi aparan şəxslər söyləyiblər ki, ev sizin olsa da, üzərindəki daşlar dövlətə məxsusdur.

**F.Əliyev bununla yanaşı, başqa iddialar da səsləndirdi:**

“Nə qədər qəribə olsa da bunlar hesab edirlər ki, evin üzərindəki daşlar dövlətə məxsusdur. 120 ildən çox yaşı olan tikilini artıq dağıtmağa başlayıblar. Sona qədər mübarizə aparacağam. Evimi tarixi tikili kimi qorumaq istəyirdim. Artıq zədələyiblər. Buna baxmayaraq, mənzilimi tərk etmək istəmirəm. Elə ona görə də heç bir sənədə imza atmayıb, heç bir müqavilə də bağlamamışam”.

**Sakin iddia edir ki, ərazidə söküntü işləri ilə məşğul olan icra nümayəndələrinin də təmsil olunduğu komissiya üzvləri baş nazirin müavini Abid Şərifova yalan məlumat verib:** “Məhəllədə yaşamağa yararsız olan evlərin fotosunu çəkib, Abid Şərifova təqdim ediblər. Bildiriblər ki, bu evlər Abbas Mirzə Şərifzadə küçəsində yerləşir. O da tapşırıq verib ki, yaşamaq üçün yararsız olan evlər sökülsün. Bunlar da onun adından gəlib deyirlər ki, Abid müəllimin tapşırığıdır, evlər sökülməlidir. Bu məsələni öyrəndikdən sonra evin fotolarını çəkib Abid Şərifova göndərdim. Hələ ki bir cavab yoxdur. Ərazidə çalışanların bir çoxları da sakinlərlə kobud davranırlar”.

Elə biz də orada olduğumuz zaman ərazidə işləyən fəhlə ahıl yaşlı F. Əliyevə qarşı qeyri-etik ifadə işlətdi.

Məhəllə sakini Hacıbala Hacıyev də bildirdi ki, onun da evini sökməyi planlaşdırırlar. H. Hacıyevin yaşadığı mənzil “Sovetski”də yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi kimi qorunan məscidlə yan-yanadır. Hələ ki bu məscid də sökülməyib. Sakinlər bildirdilər ki, onların bütün kommunal xətləri kəsilib. Hətta suyu belə kəsiblər.

Sakinlərə verilən möhlətin bitməsinə gəlincə isə Şərifzadə küçəsində yaşayanlar bildirdilər ki, bu, müqavilə bağlayan, mənzilini dövlətə satan sakinlərə aiddir:

“Ola bilər ki, həmin sakinlərə mənzillərini tərk etməleri üçün verilən möhlət bitib. Bizə elə bir söz deməyiblər. Ərazi balaca olsa da, burada çox proseslər gedir. Hərə ilə bir cür razılaşırlar”.

Səslənən iddialarla bağlı elə yaradılmış komissiyanın səlahiyyətli nümayəndələrinə müraciət edib, onların da mövqeyini öyrənmək istədik. Komissiyanın özünü təqdim etməyən üzvü sualımızdan yayınaraq bildirdi ki, bu kimi məsələlərə Yasamal Rayon icra Hakimiyyəti cavab verə bilər.

**Yasamal Rayon İcra Hakimiyyətinin Rayon təsərrüfatı şöbəsinin müdiri Şahin Məmmədov “Yeni Müsavat”a sakinlərin iddiaları ilə bağlı aşağıdakıları söylədi:**

“Səslənən iddialar tamamilə əsassızdır. Bu məsələlərə təkcə cənab Abid Şərifov baxmır. Mədəniyyət və Turizm Nazirliyinin, Milli Elmlər Akademiyasının bu proseslərlə bağlı müvafiq qurumları var. Həmin qurumlar tərəfindən kompleks iş aparılaraq, qərarlar qəbul edilir. Sakinin söylədiyi hal qəti şəkildə ola bilməz. Mən özüm ərazidə gəzərək, həmin tikililərin bir-bir şəkillərini çəkdirib, Mədəniyyət və Turizm Nazirliyinə göndərmişəm. Söylənilən iddia heç bir məntiqə sıxmır. Hər şeyi bir kənara qoyaq, Abid Şərifov kifayət qədər təcrübəsi olan şəxsdir. Bəyəm ona bu cür yalan məlumat vermək olar?”

**İcra nümayəndəsi bildirdi ki, A. M. Şərifzadə küçəsində yerləşən tikililər tamamilə söküləcək:** "Hazırda onların üzərindəki tarixi elementlər çıxarılır. Elementlər çıxarılıb başa çatdıqdan sonra tikililər söküləcək. Eyni ilə həmin küçədən bir tin aşağıda mərhum jurnalist Osman Mirzəyevin vaxtilə yaşadığı ev yerləşir. Orada da Mədəniyyət və Turizm Nazirliyinin yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası idarəsinin mütəxəssisləri gəlib, qorunası elementləri bir-bir, səliqəli şəkildə çıxardıblar. Düşünürəm ki, bu elementləri haradasa tətbiq edəcəklər. Elə həmin binalar bu elementlərə görə qorunurdu. İndi də onlar, dediyim kimi, sökülərək saxlanılır".

**İcra nümayəndəsi məhəllə sakini Faiq Əliyevin digər irad və iddialarına da münasibət bildirdi:**

“Faiq Əliyevlə dəfələrlə söhbətlər aparmışıq. Onun yalnız və yalnız şəxsi məqsədləri var. Artıq onun qonşuları da gəlib razılıqlarını bildirdilər. Söküntüyə görə sakinlərin hər birinə kompensasiya verilir. Ölkə başçısı tapşırıb ki, kompensasiya verilən zaman əhalinin xeyrinə addımlar atılsın. Sakinlərin sənədində olmayan hər hansı bir quş damı, açıq eyvan və digər bu kimi tikililər də komissiya tərəfindən ölçülür, hesablanır, təsdiq olunmuş qiymətinə əsasən onlara kompensasiya verilir. Qiymətləndirmə komissiyası tam dəqiqliklə hər bir şeyi hesablayır”.









**❑ Əli RAİS**

YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016

**Adı MTN-lə əlaqəli qalmaqala qarışan "Evrostroy-S" şirkətinin sahiblərindən biri Famil Xəlilov "Yeni Müsavat"a müsahibə verib. F.Xəlilov hazırda həbsdə olan MTN generalı Akif Çovdarovla əlaqələri haqda xəbərlərə, ölkədən qaçması haqda dolaşan şayiələrə də aydınlıq gətirib. F.Xəlilov deyib ki, barəsində mətbuatda xəbərlərin yayılmasında keçmiş şərikləri Rafael Qarayevdən və onun qardaşı Mahir Qarayevdən şübhələnir:**

# Akif Çovdarovla adı hallandırılan şirkətin rəhbərlərindən biri danışdı

## Hazırda Türkiyədə olan **Famil Xəlilov:** "MTN-də bizdən 150 min pul tələb etdilər"

- Mənim düşmənlərim Rafael Qarayevlə qardaşı Mahir Qarayevdir. Barəmdə yazılanlar onların marağındadır.

***- Bu məsələdə sizin adınızın hallanmasına əsas verən məlumatlar var. Həmin məlumatlara görə, sizin ölkədən gedişinizin MTN generalı Akif Çovdarovun həbsindən sonra baş verməsi təsadüfi deyil?***

- Elə kişinin oğlu deyiləm ki, qaçım. Mən elə çörək yeməmişəm, aradan çıxam. Mənim Azərbaycanda da, xaricdə də biznesim var. Barəmdə yazılanları Rafael və qardaşı Mahir təşkil edir. Bunları yazın, çox xahiş edirəm.

***- Xanım müğənninin MTN-ə apartdırılması haqda sizin şərikiniz Seymur İsayevin adı çəkilirdi. Bu haqda nə deyə bilərsiniz?***

- Xahiş edirəm, Şəbnəm haqda mənə sual verməyin, onun adını hallandırmayın.

***- MTN generalı Akif Çovdarovla sizin əlaqələriniz haqda da məlumatlar var, deyilir ki...***

- Ay qardaş, mən Akif Çovdarovun heç sifətini tanımıram. Bunu da Rafaellə Mahir ortaya atır.

***- Akif Çovdarovun köməkçisi Təhmasib adlı şəxsi necə, tanıyırsınızmı?***

- Mən belə adam tanımıram.

***- Rafaellə Mahir Qarayevlər sizinlə niyə düşmənçilik edir? Səbəb nədir?***

- Bizlə vaxtilə şərik olublar. İndi də ayrılmışıq. Adamlar bizdən əl çəkmirlər. O gün gedib bizim ofisdə şərikimiz Bəxtiyar müəllimi döyüblər. Başqa bir işçini vurub, döyüblər. Harınlayıblar. Bilmirəm ölkə rəhbərliyi hara baxır.

***- Hüquq-mühafizə orqanlarına müraciət etmisiniz?***

- Eləmişik. Hər yerə eləmişik. Hələ ki tədbir görməyiblər.

***- Demək istəyirsiniz ki, Qarayevləri kimsə himayə edir?***

- Onları himayə edənlər var.

***- Kimlərdir?***

- Özləri yaxşı bilirlər onları himayə edən kimlərdir. Arxalarında dayananlar var. Mən Rusiyada 15 yaşından işləyən adam olmuşam. Rusiyadan pul çəkib gətirib vətənimə qoymuşam. Bu gün də orada işim-gücüm var.



***- Nə iş görürsüz?***

- Bakıda tikinti ilə məşğulam, Şəmkirdə pomidor-xiyar "parnik"lərim var. Həmin istixanalarda 100 nəfər işçi çalışır. Mən heç hara qaçmamışam. Mənim düşmənlərim Rafael və Mahir Nüsrət oğlu Qarayevlərdir.

***- Belə məlumatlar var ki, "Evrostroy-S" şirkətində podratçılara görülən işlərə görə pullarını vermirsiz. Bu nə ilə əlaqədardır?***

- Bizim şirkətin vəkilləri var, bu haqda onlardan soruşun. Təki Azərbaycanda bizim şirkət kimi şirkət olsun, camaatı dolandırsın.

***- Sizə yaxın şəxs mətbuata açıqlamasında deyib ki, Akif Çovdarovla dostluğunuz olub.***

- Yalan söhbətdir. Mən Akif Çovdarovu tanımıram.

***- Sizi MTN-ə çağırıblarmı, aparıblarmı?***

- Məni MTN-ə Rafael Qarayev apartdırıb.

***- Niyə apartdırıb?***

- Ondan MTN-ə şikayət eləmişdilər. O da MTN-dən zəng elədi, məni çağırtdırdı. Orada məndən pul istədilər. Dedim, vermirəm. 150 min pul aldılar, bizi buraxdılar.

***- 150 mini niyə aldılar?***

- Məni ora Rafael Qarayev apartdırıb.

***- MTN-də sizi kim dindirdi? Akif Çovdarovun yanında oldunuzmu? Pulu sizdən kim aldı?***

- Bilmirəm. Mən pul verməmişdim. Pulu Rafael Qarayev verdi.

***- MTN rəhbərliyi dəyişdiriləndən və generallar həbs ediləndən sonra istintaqa şikayət etdiniz?***

- Yox, şikayət etmədim. Pulu mən verməmişdim, Rafael vermişdi. 150 mini ondan almışdılar.

***- Şikayət etmədiniz?***

- Yox, məndən pul çıxmamışdı deyə şikayət də etməmişdim. Rafael həmin hadisəyə görə mənimlə düşnüşüb. O vaxtdan iki qardaş düşüblər ortalığa. Bizimlə düşmənçilik edirlər.

***- Rafael Qarayevin MTN-ə aparılmasında şərikiniz Seymur İsayevin adı hallanır. Bu məlumat doğrudur?***

- Mən Seymurla şərikəm, biz heç kimi MTN-ə apartdırmamışıq. Rafael bu gün acından ölür deyə hər kəsə şər atır. Pul qazanır.

***- Sizi MTN-də nə qədər saxladılar?***

- Mən orada 3 saat olmuşam. MTN-də kameralar var, gedib çıxarıb baxsınlar. Rafael Qarayev gedib şikayət eləsin. Mənimlə düşmənçilik edən də odur.

**❑ E.MƏMMƏDƏLİYEV**

# Abutalıbov keçmiş deputatla qanunsuz əməllərdə suçlanır

## "POSAT" üzvləri Bakı merinə etiraz məktubu yazdı: "Yalan, iftira məlumatlar əsasında hazırlanmış bu sərəncam..."

**"POSAT" Bağ-Tikinti Kooperativinin üzvləri Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbova etiraz məktubu unvanlayıb. Surəti redaksiyamıza təqdim edilən məktubda kooperativ üzvləri Hacıbala Abutalıbovun imzaladığı 03.06.2016-cı il tarixli, 7-232/10q saylı "QƏRAR"la əlaqədar aşağıdakıları diqqətə çatdırırlar:**



Hacıbala Abutalıbov



Qalib Salahzadə

"Bu sənədin mətnindən aydın görünür ki, icra hakimiyyətinin hüquq şöbəsi,1saylı Bakı İnzibatı-İqtisadi Məhkəməsinin 6 iyun 2014-ci il tarixli qərarından, Bakı Apelyasiya Məhkəməsinin 22 oktyabr 2015-ci il tarixli qərarından, Ali Məhkəmənin İnzibati-iqtisadi kollegiyasinin 07.08.2015-ci il və 12 mart 2016-cı il tarıxlı qərarlarından dürüst hüquqi nəticə çıxarmayıb. Belə ki, hər üç instansiya məhkəməsinin qərarlarında Bakı Şəhər İcra Hakimiyyəti başçısının 08.04.2014-ci il tarixli, 145 saylı "Bakı şəhər Xalq Deputatları Sovetinin" torpaq sahəsi ayrılması və tikintinin layihələndirilməsi barədə" olan 15.02.1989-cu il tarixli qərarının etibarsız sayılması barədə" sərəncamında yol verilmiş bir çox digər qanun pozuntuları göstərilib və eyni zamanda qeyd edilib ki, məsələ kooperativ üzvlərinin iştirakı ilə araşdırılmayıb. Əlavə olaraq qeyd edirik ki, yalan, iftira məlumatlar əsasında hazırlanmış bu sərəncam bizim kooperativə məxsus 4 hektar torpaq sahəsinin və əlavə 1,3 hektar dövlət torpagının Bilgəh bələdiyyəsinin və Dövlət Reestr Xidmətının Bakı şəhər şöbəsinin saxta sənədləri əsasında keçmiş deputat Qalib Salahzadə tərəfindən zəbt edilməsinə yardım etməyə yönəlib. Bunu nəzərə alaraq, ömürlərinin 50-60 ildən çoxunu respublikamiza xidmətə sərf etmiş kooperativ üzvləri olaraq bu məsələnin araşdırılmasında Baki Şəhər İcra Hakimiyyətinə etımadsızlıq göstəririk və 08.06.2016-cı il tarixinə təyin etdiyiniz görüşdən, onun bizə qarşı yol verilmiş ciddi qanun pozuntularına hüququ don geyindirmək cəhdi oldugunu anlayaraq imtina edirik və bildiririk ki, öz hüquqlarımızı Azərbaycan Respublikasinin qanunlari çərçivəsində müdafiə etməyə davam edəcəyik".

**"POSAT" üzvləri yazırlar ki, onlara qarşı törədilən haqsızlıq və ədalətsizliklə bağlı prezident İlham Əliyevə məlumat göndəriləcək. Məktub müəllifləri Hacıbala Abutalıbovun imzaladığı qərardakı qanunsuzluqları da sadalayırlar:** "Qərarda inzibati icraatın başlanması əsasları, yəni "İnzibati icraat haqda" Qanunun 28.1.1-ci maddəsində nəzərdə tutulmuş - inzibati icraata kimin ərizəsinə əsasən başlanması göstərilməyib, inzibati icraatın başlanması üçün əsas olmuş müraciətin surəti təqdim edilməyib.

-"İnzibati icraat haqda" qanunun 4.1-ci maddəsinə görə, inzibati orqanlar qanunla onların səlahiyyətinə aid edilmiş işlər üzrə inzibati icraatı həyata keçirirlər.

Həmin qanunun 14.1-ci maddəsinə görə isə inzibati orqan diskresion səlahiyyətlərini qanunla müəyyən olunmuş hüdudlar daxilində *(qanunla ona verilmiş səlahiyyətlər daxilində)* həyata keçirməyə borcludur.

Bakı Şəhər İcra Hakimiyyətinin hazırda onun balansında və ya mülkiyyətində olmayan daşınmaz əmlakla bağlı hər hansı inzibati icraat qaydasında işə baxması qanunvericiliyin tələblərinə ziddir.

Qərarda göstərilən Bakı Şəhər İcra Hakimiyyəti başçısının 08.04.2014-cü il tarixli 145 saylı sərəncamının ləğv edilməsi ilə bağlı qaldırdığımız mübahisələndirmə haqda qanuni qüvvəyə minmiş məhkəmə qərarlarında inzibati icraata baxılması zamanı maraqlarına toxunulan şəxslərin icraata cəlb edilməməsi, sərəncamın ləğv edilməsi üçün yeganə əsas deyil, həmin sərəncamın ləğv edilməsi əsaslarından biri olub.

Eyni zamanda ayrılmış torpaq sahəsinin həqiqətən də "POSAT" Bağ-Tikinti Kooperativinin istifadəsində olması kooperativin Bakı Şəhər İcra Hakimiyyətinə və üçüncü şəxs Salahzadə Əliabbas Qalib oğluna qarşı olan inzibati iş üzrə 1 saylı Bakı İnzibati İqtisadi Məhkəməsinin, Bakı Apelyasiya Məhkəməsi İnzibati İqtisadi Kollegiyasının, Ali Məhkəmənin İnzibati İqtisadi Kollegiyasının qərarlarında əksini tapıb".

**Bundan başqa, kooperativ üzvləri BŞİH-in birtərəfli mövqe tutduğunu da diqqətə çatdırırlar:** "Bakı Şəhər İcra Hakimiyyəti doğrudan da qərəzlli mövqedə deyildirsə, bu işin nəticəsində maddi marağı yoxdursa, Azərbaycan Respublikasının adından çıxarılan qanuni qüvvəyə minmiş məhkəmə qərarlarına tabe olursa, hazırkı inzibati icraat üzrə ərizəni baxılmamış saxlamalıdır".

**❑ E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016

**Milli Məclisin deputatı Zahid Oruc "Yeni Müsavat"ın dünənki sayına müsahibəsində müzakirələrə yol açan bir sıra fikirlər bildirib. Z.Oruc qeyd edib ki, devalvasiya fonunda ənənəvi iqtisadi inkişafdan qopmuş və sosial sabitlik atmosferindən kənarlaşmaq yolunu tutmuş insanları görərkən ona biganə qalmaq nəinki millət vəkili adına, eləcə də müdafiə etdiyi siyasi kursun mahiyyətinə və onun gələcək davamlılığı ideyasına zidd olardı.**

# İqtidar və müxalifətin daha bir oxşar xüsusiyyəti...

## "Rəqib mətbuata niyə danışırsan?!"



**Bir müddət əvvəl mediada tənqidi ruhlu ardıcıl açıqlamaları da bununla bağlı olub:** "Əlimizi sıxıb bizimlə həmrəylik göstərənlər hər vəchlə susmaqla hara xidmət etdiklərini özləri bilmirdilər. Onlar qazandıqlarını itirməmək üçün istənilən rejimlə müqavilə bağlayarlar. Onlar bir vaxtlar Napoleon Fransasında olduğu kimi, royalistlər və yakobinçilərin, digər cərəyanların arasında gedən qanlı savaşlarda, termidor inqilablarında başları kötüyə gəlməsin deyə, min cür hiyləyə əl atanlara bənzəyirlər. Əslində parlamentdə normal müzakirə mühitində prezident İlham Əliyevin elan etdiyi yeni kursun mahiyyətini daha yaxşı izah etmək, onun hansı hədəfləri qarşıya qoyduğunu daha müfəssəl çatdırmaq mümkün idi. Lakin bəzən sükutu mövqeyə çevirənlərin çoxluğu fonunda fərqli tribunalarda söylənilən fikirlərimizə fərqli libas geyindirənlər, "niyə filan fikir filan qəzetdə, saytda getdi" kimi yanaşanlar olur.

Faktiki olaraq institusional islahatların dərinləşməsi və dəyişilən siyasətin keyfiyyət fərqi dediklərimizə sübutdur. Xalqdan gələn çağırışları ən yaxşı dinləyən lider məhz prezidentin özüdür. "Sükut mövqeyi"nə çəkilməyə gəldikdə isə hər halda, siyasət birxətli və təkməchullu tənlik deyil. Onu matrisa kimi qəbul edərək bir çox beyinlərin sakitləşməsini gözləmək lazım idi. Lakin mən parlament üzvü kimi heç zaman əqidəmdən və siyasi yolumdan dönməmişəm".

Z.Orucun bu fikirləri bir daha göstərir ki, iqtidar və müxalifət düşərgəsinin bir neçə oxşar xüsusiyyətləri var. O xüsusiyyətlərdən ən başlıcası odur ki, fərqli fikrə həddən artıq dözümsüzdürlər. Tutaq ki, "Yeni Müsavat" qəzetində hansısa iqtidar adamının müsahibəsi çıxanda müxalifətdəki bir çox şəxslər az qalırlar diktofonu müsahibəni götürən müxbirin başında sındırsınlar. Yaxud iqtidar tərəfdən bir adam "Yeni Müsavat" və digər müstəqil qəzetlərə danışanda həmin adama qarşı müəyyən bir basqı olur. Əvvəllər basqı daha çox idi. Artıq son dövrlər bu aqressiyanı qəzetlər xeyli dərəcədə azalda biliblər. İstər iqtidar, istər müxalifət siyasətçisi olsun, onların işi həm də mediaya danışmaqdır. Danışarkən də fərq qoymamalıdır. Mediaya açıqlama məsələsində "bu iqtidar, bu müxalifət mətbuatıdır" sıralaması aparmaq qüsurdur, "KİV haqqında" Qanuna da ziddir. Zahid Oruc o deputatlardandır ki, biz illərdir ondan çox asan müsahibələr, rəylər ala bilirik. O, mediaya münasibətdə ayrı-seçkiliyə yol vermir. Z.Oruc müsahibələrində hətta iqtidarın özünü belə tənqid edir. Onun sonuncu müsahibəsindən də belə anlaşılır ki, Azərbaycan iqtidarı ilə müxalifətinin baxışları üst-üstə düşür. Məsələn, Zahid Orucu kimlərsə müxalifətyönlü qəzetlərə, müstəqil mətbuata danışmaqda suçlayır. O cümlədən də müxalifət düşərgəsindən kim hakimiyyət qəzetlərinə müsahibə verirsə, müxalifət həmin adamı suçlayır, hətta satqın da adlandırır. Yaxud da, məsələn, "Yeni Müsavat" qəzetində iqtidar deputatlarının müəllif məqalələri çap ediləndə bəzi müxalifətçilər bunu çox kəskin qarşılayır. "Filan deputatın yazısı sizdə niyə gedib" tipli suallar verirlər. Halbuki müstəqil qəzetin işi bütün mövqeləri oxucuya çatdırmaqdır. O mövqedən nəticə çıxarmaq, qiymətləndirmək isə oxucunun işidir, qəzetin, jurnalistin işi deyil. KİV hər kəsə, bütün mövqelərə yer ayırmağa borcludur və buna görə media orqanını, jurnalisti günahlandırmaq qanuna və jurnalistika prinsiplərinə uyğun deyil.

❑ E.SEYİDAĞA

# Rəsul Quliyevin tərəfdarları hərəkətə keçib?

## Eks-spikerdən növbəti mesaj: "Start komandası verməmişəm"; lideri sayıldığı partiya onu qarşılamağa hazırlaşır

**ABŞ-da mühacirətdə yaşayan eks-spiker Rəsul Quliyevin adının İnterpolun axtarış sistemindən çıxarılmasından sonra "Quliyev cəbhəsi"ndə canlanma var. Belə iddialar var ki, sabiq spikerlə bağlı qərarın ardınca onun Azərbaycandakı tərəfdarları təşkilatlanma yönündə fəallaşıblar.**


Rəsul Quliyev

Hətta Quliyevin bununla bağlı elektoratına ismarış göndərdiyi də deyilir. Artıq eks-spikerin tərəfdarlarının onun gəlişinə hazırlıq gördükləri də yayılan xəbərlər sırasındadır.

**Bu iddialarla bağlı R.Quliyevin fikirlərini aldıq. Parlamentin keçmiş sədri təşkilatlanmaqla bağlı tərəfdarlarına heç bir tapşırıq vermədiyini söylədi:** "Mənim tərəfdarlarımın gəlməyim üçün təşkilatlanmasından xəbərim yoxdur və belə bir işin başlanması üçün heç bir start komandası verməmişəm. Ümumiyyətlə, "mənim tərəfdarlarım" məfhumu bir qədər mücərrəddir. Bu tərəfdarlar hansısa bir partiya və ya partiyalarda təmərküzləşməyiblər. Onlar hər yerdə var; partiyalarda, hökumət qulluqçuları arasında, inzibati orqanlarda, zavod və fabriklərdə, təhsil ocaqlarında, səhiyyə işçiləri arasında, bir sözlə, hər yerdə. Ona görə də tərəfdarlarımın təşkilatlanması mücərrəd termindir və mən mücərrədliyə tapşırıq verməmişəm".

**R.Quliyevin Azərbaycandakı nümayəndəsi, onun lideri sayıldığı Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu İnterpolun sabiq spikerlə bağlı qərarından sonra təşkilatlanma yönündə fəallığın artdığını dedi:** "Bu günə qədər bir an belə vaxtımızı boş keçirməmişik. Hər zaman təşkilatlanmağa üstünlük vermişik. Təbii ki, İnterpolun qərarından sonra proseslərdə fəallıq artıb. Tərəfdarlara psixoloji cəhətdən təşkilatlanmağa bu qərar daha da kömək oldu. Bu günə qədər bir addım atırdıqsa, bundan sonra iki və ya daha çox addımlarımızı atmağa məcburuq. Rəsul bəyin düşüncəsi daim bu olub ki, siyasi qurum hər zaman təşkilatlanmalıdır. Zamanında bu barədə öz tapşırıqlarını, tövsiyələrini verib. Biz də buna uyğun fəaliyyətimizi davam etdiririk. Amma İnterpolun bu qərarından sonra Rəsul bəy bu istiqamətdə hər hansı bir tapşırıq verməyib. Elə məsələlər var ki, burada tapşırığa ehtiyac yoxdur. Qarşıda bizi qələbələr gözləyir".

A.Şakiroğlu partiyasının R.Quliyevi qarşılamağa hazırlaşdığını da qeyd etdi.

❑ Cavanşir ABBASLI

# Elçibəyin kürəkənindən Tofiq Qasımova "yerlibaz" ittihamı

## Sülhəddin Əkbər: "AXC hakimiyyəti dönəmində milli siyasətdə regionçuluq qətiyyən olmayıb"


Tofiq Qasımov


Aqil Səmədbəyli


Sülhəddin Əkbər

**Eks-prezident Əbülfəz Elçibəyin kürəkəni, tanınmış siyasətçi Aqil Səmədbəyli moderator.az-a açıqlamasında AXC iqtidarı daxilindəki münasibətlər və Elçibəyin hakimiyyətdən gedişi ilə bağlı danışıb. A.Səmədbəyli "AXC-nin içində olanlar yaxşı bilirlər ki, Tofiq Qasımov heç də Elçibəyi sevən adam deyildi. Bunun səbəblərindən biri də Azərbaycandakı xəstə yerliçilik təfəkkürüdür" - deyə qeyd edib:**

"Nə yazıq ki, sovet dövründə Azərbaycanda bu xəstəlik kifayət qədər inkişaf etdirilib. Bu xəstəlik yalnız Elçibəy dönəmində aradan qalxmışdı. Elçibəy kadrlara haradan olmağına görə qiymət və vəzifə vermirdi. Hətta naxçıvanlıların və qərbi azərbaycanlıların Elçibəy dönəmində iqtidarda çox az sayda təmsil olunması da onun devrilmə səbəblərindən biri kimi göstərilir. Tofiq Qasımov devrimdən və həbsindən xeyli sonra bir müddət Ankarada yaşadı. Orda da Elçibəy haqqında ağzına gələni danışırdı. Buna son vermək üçün dostum Raqiblə Ankaraya getdik - onu "görməyə". Görüşdən qaçdı. Telefonda Raqib ona yaxşıca xəbərdarlıq etdi. Bundan sonra Tofiq Qasımov susdu.

Hakimiyyətin devrilmə səbəbi kimi hamı daxili problemləri qabardır. Bu, tamam yanlış yanaşmadır. Əsas səbəb qətiyyən bunlar deyil. İnanın ki, Elçibəy komandası gerçəkdən monolit olsaydı da devriləcəkdi. Səbəbi də neft idi. 20-ci əsrdə ən azı 15 dəfə çevrilişə, milyonlarla insanın qanının axmasına səbəb olan neft. Məsələnin bütün mahiyyəti burda gizlidir".

**A.Səmədbəylinin sözlərinə görə, əgər Elçibəy iqtidarda qalmaq üçün dirənsəydi, Azərbaycan təkrar parçalanacaqdı:** "Bunun üçün ssenari hazırlanmışdı. Ruslar Elçibəyin iqtidardan rahat çəkiləcəyini hesab etməmişdilər plan yaparkən. Onlar sovet imperiyasına qarşı savaş bayrağı açan birinin, rus ordusunu Azərbaycandan çıxaracaq qədər cəsarət göstərən birinin iqtidar üçün savaşacağını düşünürdülər. Hesabları da belə idi ki, bu halda Gəncədəki "Birlik" Surət Hüseynovun şəxsində rusları Azərbaycana dəvət edəcək və onlar da "barışcıl"" məqsədlə təkrar ölkəmizi "xoşbəxt" edəcəklər. Bu planı Moskvadakı güvənilir qaynaqlar Elçibəyə çatdırmışdılar. Bəy Kələkiyə getdikdən sonra rus mətbuatı yazırdı: "Uçitel nas obmanul!" Onlar Elçibəyə "uçitel" deyirdilər öz aralarında.

Bu gün Suriyaya, İraqa, Yəmənə, Liviyaya baxıb hər gün Elçibəyə minnətdar olmalıyıq. O, hakimiyyətə gəlməsi ilə də, getməsi ilə də Azərbaycana xidmət etdi".

**AXC hakimiyyəti dövründə milli təhlükəsizlik nazirinin birinci müavini işləyən AzDP sədri Sülhəddin Əkbər isə "Yeni Müsavat"a bildirdi ki, AXC hakimiyyəti dönəmində milli siyasətdə regionçuluq qətiyyən olmayıb:** "Həmin hakimiyyətin əleyhinə olan adamlar da, məncə, etiraf edərlər ki, o dövrdə doğrudan da regionçuluq olmayıb. Ola bilsin ki, hansısa fərdlərin davranışında kiçik miqyasda olub. Amma bütövlükdə dövlət və hökumət siyasətində qətiyyən yerliçilik olmayıb. Dövlət və hökumət siyasətində regionçuluq əleyhinə siyasət aparılıb. Bu siyasət məqsədyönlü şəkildə aparılırdı. Prezident Əbülfəz Elçibəy bu məsələyə xüsusi fikir verirdi. Bu barədə dəfələrlə söhbətlərimiz olub. Elçibəy regionçuluğa qarşı siyasət aparmağa üstünlük verirdi.

Azərbaycan dövlətçilik tarixinə qısa bir ekskurs eləsək, bilirsiniz ki, bizim milli dövlətçilik tariximizin inkişafı xanlıqlar dövründə Rusiyanın Şimali Azərbaycanı işğalı ilə bağlı qırılıb. Regionçuluq məhz xanlıqlar dövrünə xas olan siyasi-ictimai hadisədir. Azərbaycan 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa edəndə də regionçuluq problemi müşahidə edilirdi. Ona görə də Əbülfəz Elçibəy məqsədyönlü şəkildə bu problemin meydana çıxmaması istiqamətində siyasət aparırdı. Hansısa kiçik miqyaslı hadisələr olubsa da, bu, milli siyasət səviyyəsində olmayıb".

**O ki qaldı Aqil Səmədbəylinin "Tofiq Qasımov heç də Elçibəyi sevən adam deyildi, orda-burda Elçibəyin əleyhinə danışırdı" fikrinə, S.Əkbər siyasi komandadaxili məsələləri mətbuatda bu səviyyədə müzakirə etməyi düzgün hesab etmədiyini dedi:** "Biz bir siyasi komandada olmuşuq. Komanda üzvü olmuş bir adam kimi mən bu cür müzakirədə iştirakı etik baxımdan düzgün hesab eləmirəm. İstənilən kollektivdə şəxsi münasibətlərdə bu və ya digər başqa səbəbdən problemlər ola bilər. Amma onun ictimai müzakirəsini, ümumiləşdirilməsini düzgün saymıram".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016

# Amerikadakı qətliamın şok detalları

## Dəhşətli qırğın Trampın prezident seçilməsinə yönəlib? Şahin Cəfərli: "Başqa bir Avropa ölkəsində də terrorun baş verməsi tamamilə mümkündür"

**İyunun 12-də Amerikada özəl şirkətdə çalışan 29 yaşlı əfqan Ömər Mətinin törətdiyi, 50 nəfərin ölümü ilə nəticələnən terror aktı dünyanın diqqət mərkəzindədir. Ekspertlər isə terrorun prezident seçkiləri ərəfəsində baş verməsini təsadüf saymırlar.**

ABŞ-da bu hadisədən sonra müsəlmanlara qarşı münasibətin dəyişəcəyi istisna olunmur. O münasibət ki, əfsanəvi boksçu Məhəmməd Əlinin günlər öncəki dəfnindən sonra çox istiləşmişdi. Amerikada müsəlmanlara qarşı 3 gün davam edən isti münasibətin fonunda qəflətən belə bir hadisənin törədilməsinin sözsüz ki, pərdəarxası məqamları var. Hadisənin "mavilər"in olduğu barda törədilməsi də suallar yaradıb.

Hadisədən sonra terrorun Avropa ölkələrinə də keçə biləcəyi barədə həyəcanlı xəbərlər yayılıb. Əsas hədəf kimi də Fransanın seçiləcəyi ehtimal olunur. Çünki Avropanın diqqəti bu ölkəyə yönəlib. Səbəb də hazırda davam edən Avropa Çempionatının bu dövlətdə keçirilməsidir.

**Politoloq Şahin Cəfərli Amerikadakı terrorun xanım Klintonun prezident seçilmək şanslarını azaltmağa yönəlik addım olduğunu düşünmür:** "ABŞ-dakı son olay beynəlxalq miqyaslı terror şəbəkəsinin və bu şəbəkəyə rəğbətlə yanaşan ayrı-ayrı fərdlərin növbəti, rutin terror aktıdır. Ola bilsin, bu hadisənin konkret motivi terrorçunun homoseksuallara, onların həyat tərzinə olan şəxsi nifrəti və dözümsüzlüyüdür. Lakin artıq heç kim üçün sirr deyil ki, terrorçular fasiləsiz rejimdə hazırlıqlarını davam etdirir və imkan yaranan kimi, öz planlarını həyata keçirirlər. Baş verənlər həm də onu göstərir ki, dövlətlər asimmetrik təhdidlərə qarşı önləyici tədbirlər görməkdə hələ də yetərsiz qalır. Ona görə də qarşıdakı dönəmdə terror aktlarının davam edəcəyini söyləmək üçün xüsusi öncəgörmə istedadına ehtiyac yoxdur. Orlando hadisəsinin Hillari Klintonun şansını azaltmağa yönələn planlaşdırılmış aksiya olduğu yönündəki konspirativ yanaşmaları qəbul etmirəm. Burada məntiq də yoxdur. Çünki hazırda Klintonun partiyası hakimiyyətdədir. Bəzən ABŞ "dərin dövləti"nin Trampı hakimiyyətə gətirmək istədiyi barədə fikirlər də eşidirik. Hesab edirəm ki, bu cür fikirlərə əhəmiyyət verməyə dəyməz. Dövlət nəyə görə Trampın prezident seçilməsində maraqlı olmalıdır? Trampın bütün fikirləri ABŞ-ın beynəlxalq rolunu azaltmağa, onu dünya məsələlərinə müdaxilədən çəkindirməyə, dövlətin bir növ öz içinə qapanmasına, eləcə də qonşu dövlətlər və fərqli sivilizasiyalarla münasibətlərinin korlanmasına yönəlib. Fikrimcə, "dərin dövlət" deyilən struktur - əgər varsa - belə bir adamın prezident seçilməsində yox, əksinə, seçilməməsində maraqlı ola bilər".

**Politoloq Fransada terror hadisəsinin baş verə biləcəyinə də işarə vurdu:** "Qeyd etdiyim kimi, Orlando terroru beynəlxalq şəbəkə və onun simpatizanlarının rutin fəaliyyətinin növbəti təzahürüdür və terror dalğasının nə vaxt dayanacağı və nə vaxt qarşısının tam alınacağı məlum deyil. İstər Fransada - Avropa çempionatının gedişi zamanı, istərsə də başqa bir Avropa ölkəsində terrorun baş verməsi tamamilə mümkündür və bu, heç kimi təəccübləndirməz, çünki belə bir təhlükə hər an gözlənilir".


Şahin Cəfərli

**Ş.Cəfərli Türkiyədəki terrorlarla bağlı Ərdoğanın tənqid edilməsinin ədalətsizlik olduğunu qeyd etdi:** "Türkiyədə baş verən terrordan sonra bu ölkə hökumətinin və prezident Ərdoğanın, Qərbdəki terrordan sonra isə radikal islamçıların ittiham olunması arasında bir təzad görmürəm. Hər situasiyaya fərqli baxılmalıdır. Türkiyədəki terrora görə bütün məsuliyyəti hazırkı hakimiyyətin üstünə atmaq ədalətsizlik olardı. PKK terroru Türkiyədə AKP-nin iqtidara gəlməsindən əvvəl də mövcud idi, kürd separatizminin tarixi isə Osmanlı dövrünə gedib çıxır. AKP ona görə tənqid olunur ki, öz hakimiyyəti illərində kürd məsələsində ziddiyyətli və qeyri-ardıcıl siyasət yeridib. Məsələn, ötən illərdə Ərdoğan Türkiyədə kürd probleminin olduğunu bildirirdi və dövlətin siyasəti də buna uyğun qurulmuşdu. İndi isə bildirir ki, kürd problemi yoxdur, nəticədə dövlət siyasətinin yenidən kardinal dəyişikliyə məruz qaldığını görürük. Mən "çözüm süreci" deyilən prosesin gedişində buraxılan dəhşətli səhvləri bir-bir sadalamaq istəmirəm. Həmin səhvlərin acı nəticələrini Türkiyə bu gün yaşayır. Bu məsələdə AKP hökumətini tənqid edənlər terrora qətiyyən haqq qazandırmır, belə bir düşüncəyə rast gəlməmişəm. Eyni zamanda Türkiyənin Suriya məsələsinə fəal müdaxiləsi və bu bataqlığın içinə girməsi nəticəsində radikal dinçi terrorun da ölkəyə ayaq açmasını qeyd etməliyik. Qərbdə isə fərqli situasiyadır. Məsələn, "Obamanın siyasəti nəticəsində ABŞ-da terror artıb" demək, yanlış olardı. Əksinə, məntiqlə, Obamanın siyasəti nəticəsində ABŞ-a qarşı aqressiv münasibət səngiməliydi. Çünki o, İraqdan qoşunları çıxarıb, Əfqanıstandakı ABŞ qüvvələrini ixtisar edib və Suriyaya qoşun yeritməyib. Lakin hər hansı səngimə müşahidə etmirik, çünki terror ABŞ-ı, Avropanı və bütövlükdə Qərb sivilizasiyasını hədəf seçib, burada hakimiyyətdə kimin olması əhəmiyyət daşımır. Qərbdəki terror zamanı bu ölkə hökumətlərinin yox, terroru törədən qüvvələrin ön plana çıxması təbiidir. Bu məsələdə Qərbin siyasətinin əsas rol oynadığını iddia edənlərlə razı deyiləm".

❑ **Cavanşir ABBASLI**

# Hillari Klintonun Bakıdakı tanışından və demokrat siyasətçidən açıqlamalar



## "O, dövlət katibi olanda Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə çalışmışdı, bu yol davam etdiriləcək"

**Demokratlar Partiyasının namizədi Hillari Klintonun ABŞ prezidenti olacağı ehtimalı getdikcə artır. Artıq rəy sorğularında xanım Klinton respublikaçı rəqibi Donald Trampı 60 faiz səs toplamaqla xeyli üstələyib. Məlumdur ki, Klinton dövlət katibi olduğu dövrdə Türkiyə-Ermənistan sərhədlərinin açılmasını nəzərdə tutan Sürix protokolunun müəlliflərindən biri olub. Türkiyənin Ermənistanla sərhədi açması, əlaqələrin bərpa olunması üçün Klinton xeyli cəhdlər etmişdi. Buna baxmayaraq, müsbət nəticə əldə edilməmişdi. Bu fakt "Hillari Klinton prezident olacağı halda sərhəd açılması məsələsi yenidən ABŞ tərəfindən ciddi şəkildə gündəmə gətirilə bilərmi və Klinton prezident olsa ABŞ-ın Qarabağ problemi ilə bağlı mövqeyində hansısa dəyişikliklər olması mümkündürmü" suallarını meydana çıxır.**

H.Klintonla şəxsi tanışlığı olan **siyasi ekspert Bəxtiyar Hacıyev** "Yeni Müsavat"a bildirdi ki, xanım Klinton dövlət katibi kimi fəaliyyət göstərdiyi müddətdə Türkiyə və Ermənistan arasındakı münasibətlərin yaxşılaşdırılması və yaxınlaşdırılmasına, Ermənistanın "soyqırım" iddialarından regional əməkdaşlığa cəlb edilməsinə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə çalışmışdı. Bu, çox düzgün, doğru yanaşma idi və Sürix prosesinin uğurla nəticələnməsi Ermənistanın öz maraqlarında olmalı idi: "Ermənistanın həm Türkiyə ilə "soyqırım" iddialarından əl çəkib əməkdaşlıq qurması, həm Azərbaycanın işğal edilmiş ərazilərini boşaldıb qondarma "DQR"in müstəqilliyinə çalışmaqdan əl çəkməsi və Azərbaycanla münasibətləri yaxşılaşdırması Ermənistanı regional iqtisadi layihələrə cəlb edə, ölkəni Rusiyanın təsirindən çıxara, Qərbə bir çox yeni qapılar aça bilərdi.

Ancaq haqlı olaraq Azərbaycan və Türkiyə tərəfləri yaxınlaşma üçün ilkin şərt kimi


Bəxtiyar Hacıyev


Taliyət Əliyev

Azərbaycanın işğal olunmuş ərazilərinin işğaldan azad edilməsi şərtini qoydu. Ermənistan isə növbəti dəfə praqmatik, öz ölkəsinin maraqlarında olan yaxınlaşmanı yox, işğalı, soyqırım iddialarını üstün tutdu".

**B.Hacıyev qeyd etdi ki, xanım Klinton ABŞ prezidenti seçilərsə, çox güman ki, Obamanın xarici siyasi yanaşmasını davam etdirəcək. Bu isə daha az qarşıdurma, daha çox əməkdaşlıq və yaxınlaşma deməkdir:** "Corc Buş hakimiyyətindən fərqli olaraq Obama administrasiyası sərt gücə yox, yumşaq və ağıllı gücə üstünlük verdi və həm qarşıya qoyulan məqsədlərə çatdı, həm də ABŞ-ın dünyadakı itmiş nüfuzunu nisbətən bərpa etdi. Düşünürəm ki, xanım Klinton da həm öz təcrübəsi ilə, həm Obama administrasiyasının uğurlarının davam etdirilməsi məqsədi ilə, həm də iki dönəm prezident olmuş həyat yoldaşı Bill Klintonun təcrübəsi ilə bu xətti davam etdirəcək".

**Azərbaycandakı Demokrat Partiyasının sədr müavini Taliyət Əliyev isə bildirdi ki, H.Klinton Azərbaycanın da yerləşdiyi regionun problemlərinə yaxından bələd olan bir siyasətçidir. ABŞ-ın dövlət katibi olduğu müddətdə onun Türkiyə-Ermənistan münasibətlərinin yoluna qoyulması istiqamətində atdığı addımları nəzərə alsaq, prezident seçiləcəyi təqdirdə yarımçıq qoyduğu məsələlərin həllinə yeni cəhdlərin edilməsini proqnozlaşdırmaq olar:** "Əslinə qalsa, Türkiyə-Ermənistan münasibətlərinin nizama salınması, Azərbaycan-Ermənistan münasibətlərinin, daha doğrusu, Dağlıq Qarabağ probleminin ədalətli həll olunmasından birbaşa asılı olan məsələdir. Xanım Klintonun da müəllifi olduğu Sürix protokolunun da nəticəsiz qalmasında əsas səbəb Azərbaycan-Ermənistan münasibətləri oldu. Artıq ABŞ siyasi dairələri də anlayır ki, Azərbaycan və Ermənistan arasında olan Dağlıq Qarabaş münaqişəsi həll olunmayınca, Türkiyə-Ermənistan münasibətlərinin nizama salınması həlli çətin olan məsələdir. Xanım Klinton prezident seçiləcəyi təqdirdə Türkiyə-Ermənistan münasibətlərinin yoluna qoyulmasına yenidən qayıdacaqsa, bu faktoru nəzərə almalı olacaq. Prezident seçiləcəyi təqdirdə Hillari Klintonun konkret olaraq Dağlıq Qarabağ probleminin həlli istiqamətində hansı yeni addımlar atmasına gəlincə isə bu məsələdə konkret proqnoz vermək çətindir. Bu məsələyə ötən dövr ərzində ABŞ-ın münasibətindən çıxış edərək deyə bilərəm ki, növbəti dönəmdə də ABŞ tərəfindən bu problemin həlli istiqamətində addımlar atılacaq. Sadəcə, son illər dünyada və regionda, o cümlədən son aylar Azərbaycan və Ermənistan arasında davam edən qısamüddətli müharibə bu problemin həlli ilə bağlı daha ciddi addımların atılmasını şərtləndirə bilər".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016

# "Milli Məclis sədrliyindən istefam komanda qərarı idi"

## İsa Qəmbər: "4 iyun qiyamını yatıra bilməmişik və bunun məsuliyyəti bizim üzərimizdədir"

**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər 4 iyun qiyamı ilə bağlı açıqlama verib. 1993-cü ildə Əbülfəz Elçibəyin prezidentliyi dönəmində Milli Məclisin sədri olmuş İsa Qəmbər istefa qərarının özü tərəfindən verilmədiyini, bir komanda şəklində verilən qərar olduğunu açıqlayıb.**



İyunun 11-də Bütöv Azərbaycan Ocaqlarının təşkil etdiyi dəyirmi masada çıxış edən İ.Qəmbər musavat.com-un 23 il əvvəl baş vermiş məlum istefa ilə bağlı sualına cavabında qeyd edib ki, komandanın ümumi qərarından fərqli mövqe tuta bilməzdi: "Mən qiyamın yatırılması tərəfdarı idim. Ümumiyyətlə, 4 iyun qiyamı ilə bağlı çox söz demək olar, ancaq iki dənə cümlə var. Birincisi, qanuni hakimiyyətə qarşı, Elçibəy iqtidarına qarşı qiyam baş verib. İkinci də, həmin hakimiyyət qiyamı yatıra bilməyib. İki həqiqət bundan ibarətdir, gerisi təfərrüatdır. Mən qiyamın yatırılması tərəfdarı idim. Başqa bir təklif də var idi ki, hakimiyyəti siyasi müxalifətlə bölməklə siyasi müxalifətlə hərbi müxalifəti bir-birindən ayırmaq olar və nəticədə qiyamı yatırmaq, zərərsizləşdirmək mümkünləşər. Mən bu variantın mümkün olacağına inanmırdım. Çünki görürdüm ki, bu prosesin başında Heydər Əliyev dayanır. Heydər Əliyev də heç kimlə hakimiyyət böləsi adam deyil. Uzaqbaşı gördünüz, bir illiyə Surət Hüseynovla böldü, o da kosmetik bir addım idi. Ona görə bu addım mənə uğurlu görünmürdü. Bu barədə də fikrimi demişdim. Amma ümumi qərar bu istiqamətdə olandan sonra mənim fərqli mövqe tutmağım anlaşılmazdı - nə o dövrdə bizim hakimiyyət komandası tərəfindən anlaşılmazdı, nə də ki, indiki dönəmdə, tarixə indidən baxanda anlaşılmazdı".

**İ.Qəmbər bildirib ki, parlament sədri seçildiyi gün Əbülfəz Elçibəyə "istənilən gün, nə zaman siz desəniz, mən vəzifədən kənara çəkiləcəm" deyib:** "Bu sözü demiş adam kimi, nə cür 1993-cü ilin o ağır günlərində, Elçibəy hakimiyyətinin qərarı siyasi müxalifətlə hərbi müxalifəti bir-birindən ayırmaq olduğu mərhələdə vəzifədə qalmaq üçün israr edə bilərdim? Təbii ki, istefa verməli idim. Hesab edirəm ki, konkret tarixi məqamda düzgün addım atmışam. Amma bütövlükdə 4 iyunda özümün düzgün mövqedə olduğum, başqalarının səhv mövqedə olduğu haqqında danışmaq istəmirəm. Əksəriyyət belə edir, kimi dindirirsən, hamı qəhrəmandır, hamı əjdahadır, başqaları günahkardır. Amma fakt odur ki, biz hakimiyyət komandası idik, qiyamı yatıra bilməmişik. Bunun məsuliyyəti bizim üzərimizdədir. Qalanı təfərrüatdır, detallardır".

❑ Röya RƏFİYEVA

# Missiyamız tək xəbərləməkdirmi?



Hüseynbala SƏLİMOV

**Bilənlər bildi, bilməyənlərsə həmişə kimi hər şeyi bildiklərini zənn etdiklərindən qımıldanmadılar da. Qərəz, iyunun ikinci həftəsi maraqlı tarixə təsadüf etdi. Düz 70 il bundan əvvəl Beynəlxalq Jurnalistika Təşkilatının əsası qoyulubmuş...**

Tarixin 70 il əvvəlki qatlarına aparmaq fikrim yoxdur sizi. Üstəlik, bu qurumun az qala bir əsrlik fəaliyyətinin nə qədər səmərəli olub-olmaması haqdakı mülahizələrlə də vaxtınızı almayacam.

Təkcə onu deyəcəyəm ki, beynəlxalq jurnalistika institutları çox, olduqca diqqətli və sayıqdır, hətta bizim təşkilatlarımızdan da qat-qat diqqətlidir - bunu jurnalistlərə beynəlxalq dəstək zamanı dəfələrlə görmüşük...

Ona görə də sözüm başqadır... Çoxdandır söz və söz adamları haqda yazmırdım. Sanki bir fürsət oldu. Dedim ki, bir çək-çevir edim, görüm, vəziyyət necədir, jurnalistlər özləri və özgələri haqda nə düşünürlər?..

Bəlli faktlarla da yormayacam sizi. Tək onu deyəcəm ki, yazılı medianın durumu ürəkaçan deyil. İnsanların qəzet almaq və qəzet oxumaq vərdişlərini korladılar, heç elədilər - indi kağız medianı oxuyan çox az adam taparsan...

Düzdür, əvəzində internet mediası inkişaf edir. Baxıb görürsən ki, əslində adamlar heç də az oxumur.

Amma internet mediadan gəlir götürmək hələ ki, müşkül məsələdir. Ona görə də jurnalistlər kağız mediadan əl çəkə bilmir və redaktorlar da vəziyyəti düzəltmək üçün uğursuz cəhdlər edirlər...

Həm də sual yaranır. Kağız mediadan əl çəkmək tez deyilmi? Axı internetin daha çox yayıldığı və inkişaf etdiyi ölkələrdə qəzetlər hələ də qalır! Bəli, məsələ də elə bundadır... Həmişə "birinci" olmağı çox sevirik. Amma bu dəfə deyəsən, "birincilik" elə də başucalığı gətirmir...

Bəlkə də indicə dediklərim bir qədər maraqsız göründü... O səbəbdən ki, daha çox peşəkarların problemini çözür...

Deyə bilərsiniz ki, axı, nə olsun ki?! Əsas odur, söz yazılır və deyilir... İnsanlar da klassik formada, keçmişlərdəki qədər olmasa da, hər halda, sözə sayğılarını tamamilə itirməyiblər: eşidir, oxuyur və nəticə çıxarmağa cəhd edirlər...

Deməli, hələ fəlakət deyil. Amma bir məsələ var. Bir sərhəd olur həmişə. Sözün bitdiyi yer deyirlər ona...

Bəli, jurnalist dürlü çətinlikləri aşaraq söz çatdırır. Bir çox hallarda onu bundan o tərəfə ola biləcəklər maraqlandırmır. Amma elə söz adamları da var ki, "o tərəfdə ola biləcəklər"ə də biganə deyillər...

Bəlkə də bu mülahizələr bizi sözün fəlsəfəsinə çəkib aparacaq. Gedib-gedib bir suala dirənəcəyik. O sual da budur ki, sözün və jurnalistin son missiyası nədir?

Bəziləri bu suala cavabda çox lakonikdir. Deyirlər ki, söz məlumat və ya xəbər çatdırmaq üçündür...

Jurnalistin - söz ötürücüsünün da missiyası budur ki, insanlara xəbər versin. Olur ki, bəzən biri azacıq irəli gedərək bura bir "Əyləndirsin!" sözünü də artırır. Elələri də tapılır ki, bundan da irəli gedərək "Həm də maarifləndirsin!" deyirlər...

Qərəz, xəbərləmək, əyləndirmək və maarifləndirmək... Sən həm çapar olmalısan, həm təlxək, həm də müəllim! Bir canda bu qədər və bu məzmunda missiya daşımaq çox deyilmi?..

Bəlkə də çoxdur, amma nə etmək olar? Təəccüblü olsa da, sözümüz heç bunda da deyil - hər əziyyətə qatlaşarıq...

Amma bütün bu funksiyaların sonunda bir sual da qoymaq olardı. O sual da budur ki, axı, nə üçün?..

Bəli, nə üçün biz xəbərləməklə məşğul olmayıq? Nə üçün əyləndirməliyik? Nə üçün maarifləndirməliyik?.. Bütün bunların bir sonu və son məqsədi olmalıdır, ya yox?

Bəziləri müasir sosial-demokratiyanın ideoloqlarından birinin - E.Bernşteynin ardınca deyirlər ki, heç bir məqsəd-filan olmamalıdır, çünki məqsəd boş şeydir, fiksiyadır, əsas hərəkətdir, dinamikadır...

Digərləri azacıq insaflı davranır və qayıdırlar ki, xəbər ona görə verilir ki, insanlar doğru-dürüst qərar qəbul edə bilsin. Əyləndirmək də öz yerində. Maarifləndirmək də ona görə lazımdır ki, insanların biliyi artsın, dünyagörüşü inkişaf etsin...

Bunlarla razıyıq... Amma bir məsələ də var. O, da budur ki, nəyisə dəyişmək, konkret olaraq cəmiyyəti dəyişmək, sosial-iqtisadi qaydaları yeniləmək və təkmilləşdirmək, siyasi sistemi mükəmməlləşdirmək jurnalistin missiyasına aiddirmi?

Çoxu buna "yox" deyir. Qısaca, girişsiz-filansız, qayıdırlar ki, jurnalistin işi-peşəsi çatdırmaqdır. Amma bununla razılaşmırıq. O mənada yox ki, jurnalist durub cəmiyyətin əvəzinə qərar verməli və ya nəsə etməlidir.

Yox, belə demirik. Amma jurnalisti bir ötürücü naqil kimi təsəvvür etmək də bəsitlikdir. Onun da umacaqları, gözləntiləri var və bu mənada bir az əvvəldə deyilənləri tamam bölüşmürük...

Bilirsiniz, bəzən sözün də bitdiyi yer olur. Bəzən biz sözün bitdiyi yerə dirənirik. Mənə elə gəlir ki, çoxdandır, bu ölkədə sözün bitdiyi yerə çatmışıq. Bütün doğru-dürsüt sözlər deyilib...

Bundan sonra deyilənlər, yazılanlar artıq əhəmiyyətli dərəcədə məlumat və bilik artırmaq gücündə deyil. Sadəcə, ona görə ki, sözün bitdiyi yerə çatmışıq - bunu bir daha vurğulamaq məcburiyyətindəyik...

# Avropadakı müsavatçıların yaratdığı mərkəz Almaniyada qeydiyyatdan keçib

## İlham Həsən: "Bizlər tədbir iştirakçılarına 50 avro paylamamışıq, əksinə, onlar öz ciblərindən bəlli miqdarda pul xərcləyiblər"

**Avropa ölkələrində yaşayan müsavatçıların qurduğu Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzi ötən həftə Almaniyada rəsmi qeydiyyatdan keçib. Bu qurum Avropada rəsmi olaraq "Musavat Europa AKM" adı altında fəaliyyət göstərəcək. "Musavat Europa AKM"in Təşkilat Komitəsinin sədri, Kəlbəcər Rayon İcra Hakimiyyətinin sabiq başçısı İlham Həsən yeni qeydiyyatdan keçən sözügedən qurumun gələcək fəaliyyəti və planları barədə "Yeni Müsavat"a açıqlama verib.**



**İlham Həsənin** sözlərinə görə, Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzi (AKM) Müsavat Partiyasının Avropada yaşayan üzvləri tərəfindən partiyanın qəbul etdiyi qərarların həyata keçirilməsi, Azərbaycanda demokratik cəmiyyətin qurulması istiqamətində fəaliyyətin səmərəliliyinin təmin edilməsi, partiya strukturları ilə əlaqələrinin dinamikliyinin artırılması, Avropa üzrə ümumi fəaliyyətin koordinasiyası məqsədilə yaradılıb. AKM -in tərkibi ayrı-ayrı ölkələrdə və ya şəhərlərdə yaşayan Müsavat Partiyası üzvləri tərəfindən seçilmiş özək *(və ya şöbə)* sədrlərindən, koordinatorlardan ibarətdir: "Mərkəzin əsas fəaliyyəti hazırda müxtəlif səbəblərdən Avropada yaşayan müsavatçıların təşkilatlandırılması, onların yaşadıqları ölkələrin hökumət, qeyri-hökumət strukturları ilə əlaqələrinin qurulması və bütün Avropa ölkələrində yerli təşkilatların qurulmasıdır. Hazırda Avropanın bir çox ölkəsində təşkilatımızın mərkəzləri fəaliyyət göstərməkdədir. Almaniya, İsveçrə, Hollandiya, İsveç, Belçika şöbələrimiz hazırda ciddi fəaliyyət göstərirlər".

**İ.Həsən bildirdi ki, əsas məqsədlərimizdən biri də Azərbaycanın Avropada tanıdılmasında, Qarabağ həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırılmasında və Azərbaycanda demokratik, hüquqi bir dövlət quruculuğunda Müsavat Partiyasının və digər demokratik təşkilatların, siyasi partiyaların fəaliyyətini dəstəkləyib, onların beynəlxalq təşkilatlarla, Avropanın aparıcı dövlətlərinin strukturları ilə əlaqələrinin qurulmasında dəstək olmaqdır:** "Eyni zamanda bu təşkilatın imkanlarından və təcrübəsindən istifadə edərək doğma Azərbaycanımızın inkişafı, Qarabağımızın azadlığı və ölkəmizdə hüquqi bir dövlətin quruculuğu naminə siyasi baxışından, partiya mənsubiyyətindən asılı olmayaraq Avropada yaşayan, Azərbaycanın milli mənafeyini dəstəkləyən bütün soydaşlarımızı bir araya gətirib ciddi bir diaspora təşkilatı qurmaq da AKM-in məqsədlərindən biridir. Hazırda ayrı-ayrı ölkələrdə bu sahədə fəaliyyət göstərən bütün təşkilatlarımızın da belə bir koordinasiya mərkəzinə ehtiyacı olduğunu düşünərək AKM-in keçiriləcək 1-ci qurultayına Avropada fəaliyyət göstərən bütün təşkilatları, siyasi partiya mənsublarını da dəvət etməyi və iştirakını təmin etməyi düşünürük. Avropada bu günə qədər Azərbaycan maraqlarından fəaliyyət göstərən istər təşkilatlar, istərsə də ayrı-ayrı şəxslər arasında müsavatçılar tərəfindən bir fərq qoyulmayıb və qoyulmasının da doğru olmadığını düşünürük. Azərbaycan maraqlarına uyğun təşkil olunan bütün tədbirlərimizdə xırda qrup maraqları güdənlər xaric, siyasi mənsubiyyətindən asılı olmayaraq milli düşüncəli bütün soydaşlarımız aktiv iştirak ediblər. Əlbəttə ki, bizlər tədbir iştirakçılarına 50 avro paylamamışıq, əksinə, onlar öz ciblərindən bəlli miqdarda pul xərcləyiblər. Milli düşüncələrdən uzaq olanlardan, saxta bir Diaspora Komitəsindən və ora üzv olan saxta vətənsevərlərdən fərqli olaraq bizlər hansısa bir qrupun və ya bir zümrənin maraqlarından deyil, Azərbaycan maraqlarından fəaliyyət göstərmişik və belə də davam edəcəyik".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016



# Balıqların dekanı

Zamin HACI
zaminhaci@gmail.com

**Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı Şamil Vəliyev işdən çıxarılıbdır. Deyir xəstə idim, öz ərizəmə görə getdim. Ancaq müavini də eyni vaxtda yola salınıbdır, bu isə bizdə müəyyən şübhələr yaradır. Ola bilsin Şamil müəllimi dövlətçiliyimizə çoxdan yaxşı xidmət göstərmədiyi üçün kənarlaşdırıblar, çünki bu dekan jurfakın tələbələrini qabağına qatıb 2013-cü ilin prezident seçkisində Balıq Hafizin mitinqlərinə adam toplaması ilə xalq arasında tanınmışdır. Günah bir az da Balıq Hafizdədir. Çoxdandır mitinq qayırmır. Nəticədə Şamil müəllim də ictimai vəzifəsini yerinə yetirə bilməyib işsiz qalır. Bunlar hamısı səbəb-nəticə əlaqələridir. O qədim zamanlarda idi ki, balığı dəryaya atanda heç kimə məlumat verməyə ehtiyac duyulmurdu. İndiki zəmanədə Balığın mitinqinə vaxtaşırı gedib hökumətin planlarını doldurmasan adama əppək vermirlər. Quyruq daima suda olmalıdır.**

Sözgəlişi, Azərbaycan mətbuatının əsas zərbəçi qüvvəsi məhz həmin "BDU" jurfakındakı inkubatorlarda yetişdirildiyi üçün telekanalizasiya və qəzetciklərimizi bürüyən cikkilti, qaqqıltı, banlama səslərinin mənbəyi məlum olur. Güclü dərs keçirlər. Kadrlar hazır şəkildə gəlir, daha onlara hırrapatriotizm, mırtikulturizm, regionun lider dövləti kimi dərslər keçməyə ehtiyac qalmır. Söz vaxtına çəkər, elə keçən il bu vaxt, 1-ci və axırıncı Avropa Oyunlarının açılış mərasimi zamanı həmin jurfakın şanlı xadimlərindən biri, qocaman jurnalist və jurnalist yonma müəllimi Nəsir Əhmədli sosial şəbəkədə yazmışdı: "Bu açılış mərasiminə baxıb gözü yaşarmayanların qanını yoxlamaq lazımdır". Təxminən, Nemət müəllimin dediyi "oturmayan ermənidir" söhbəti kimi bir elmi izahat idi. *(Ancaq çox qəribədir ki, Nemət müəllim Tibb Universiteti qan xəstəlikləri fakültəsində dərs demir).* Nəticədə polislər və həkimlər hərəkətə keçdi, evləri gəzib qan analizi apardılar, gözü yaşarmayan xeyli erməni, alman, fransız, marsiançik aşkar edilərək haqlarında dövlətçilik tədbirləri görüldü.

Bu sahədə bizimkilər əsasən rus jurnalistikasından öyrənirlər. Orada belə "qanı təmiz ağlaşmaçı" zurnalistlərin ordusu fəaliyyətdədir. Təzəlikcə Rusiya mərkəzi televiziyasında bu yöndə çox maraqlı bir süjet verildi, məncə, bizim yaltaq jurnalistlərə dərs vəsaiti kimi - həyasızlığı necə etmək lazımdır - göstərilməlidir. Rusiya idmançılarının az qala hamısında dopinq tapılır, onlar yarışlardan kənar edilir. Bu haqda bir alman telejurnalisti iki seriyalı film çəkib. İndi ruslar bir qadın jurnalisti göndərmişdilər Almaniyanın Köln şəhərinə, həmin jurnalisti şantaj eləməyə. Çox biabırçı süjet idi, amma ruslar utanmadan bunu efirə verdilər. Təsəvvür edin, alman telejurnalistin qaldığı hotel nömrəsində tualeti çəkirdilər, bilinmirdi məqsəd nədir. Sonra isə rus "jurnalist" dedi ki, sənin verilişinə görə biz olimpiadadan qıraqda qalmışıq. Alman haqlı olaraq təəccübləndi: "Siz idmançısınız? Ya orda sizin hansısa qohumunuz var?" Alman beynəlxalq jurnalistika standartlarını bu qadına izah edə bilmirdi, qadın deyirdi ki, mən Putini, öz dövlətimi sevirəm və sairə. Axırda yazıq alman bunu otaqdan qovdu. Bu dəfə qadın otağı tərk eləmək istəmirdi! Alman polis çağırdı və sairə. Müstəsna həyasız idi, mən beləsini bizim telekanalizasiyalarda görməmişəm. *(Bəlkə də var, açığı, 10 ilə yaxındır milli "efirlərimizə" - manıslar demişkən - baxmıram).*

Bizim ağır atletika üzrə komandada, daha doğrusu, ora pulla alıb gətirilən bolqarlarda da dopinq tapılıb, biabırçılıq vardır. Ümid edirəm patriot zurnalist qruplarımız həmin dopinq tapan, "ştanqistlərimizi" yarışlardan uzun müddətə qırağa atan beynəlxalq təşkilata qarşı nəsə süjet qayıracaqdır. İşləyin, uşaqlar, neft süfrəsinin qırıntıları hələ gəlməkdədir. Dekan yerləri də boşalır.

# "SS generallarına görə Rusiya Ermənistanı cəzalandıracaq"

## "Rusiya bilməlidir ki, məqamı yetişəndə ona ən böyük xəyanəti Ermənistan, ermənilər edəcək, ona arxadan zərbə vuracaq"

**Faşist Almaniyasının SS birləşmələrinin generalları olan erməni Njde Qareqin və Drasmat Kanayanın ("Dro") Ermənistanda heykəllərinin ucaldılması, həmin şəxslərin "milli qəhrəmanlar" kimi ölkə rəhbərliyi səviyyəsində təqdim edilməsi, mayın 28-də heykəllərin açılışına prezident Serj Sərkisyanın şəxsən qatılması Rusiyanın etirazına səbəb olub. Rusiya Xarici İşlər Nazirliyinin xüsusi nümayəndəsi Mariya Zaxarova iki gün öncə keçirdiyi brifinqdə İrəvanda Qaregin Njdenin abidəsinin qoyulmasının Rusiya üçün anlaşılan olmadığını açıqlayıb.**

Zaxarova deyib ki, 2014-cü ildə BMT Baş Assambleyası Rusiyanın təşəbbüsü ilə nasizmin qəhrəmanlaşdırılması ilə mübarizəyə dair qətnamə qəbul edib. Ermənistan da həmin qətnamənin lehinə səs verib. Bu il mayın 28-də isə İrəvanda III Reyxlə əməkdaşlıq etmiş, Rusiyaya, SSRİ-yə qarşı düşmənçilik fəaliyyəti göstərmiş şəxslərə abidə ucaldılması başadüşülən və Rusiya-Ermənistan münasibətlərinə uyğun gəlməyən davranışdır.

Rusiya Dumasının deputatı Maksim Sinqarkin isə abidə məsələsi ilə bağlı xarici işlər naziri Sergey Lavrova sorğu göndərib. Sorğuda nasizmlə əlbir olmuş şəxslərin qəhrəmanlaşdırılmasının yolverilməzliyi xatırladılaraq Lavrovun Ermənistana qarşı diplomatik tədbirlər görməsi tələb edilir. Rusiya ictimaiyyəti, xüsusən də faşizmə qarşı müharibənin iştirakçıları da Ermənistanın hərəkətinə etiraz ediblər.

Maraqlıdır ki, Ermənistan bu etirazlara baxmayaraq, adıçəkilən generalları erməni xalqının qəhrəmanı elan edib. Ermənistan parlamentinin vitse-spikeri Eduard Şarmazanov Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarovanın açıqlamasına münasibət bildirərkən deyib ki, Qaregin Njdenin İrəvanda abidəsi qoyulub, çünki o, həqiqətən erməni xalqının milli qəhrəmanıdır.

**"Aleksandr Nevski, Aleksandr Suvarov, marşal Kutuzov, Baqration qardaş rus xalqının milli qəhrəmanı olduğu kimi, Njde də erməni xalqının milli qəhrəmanıdır",** - deyə o qeyd edib.

Hakim Respublikaçılar Partiyasından olan deputat Marqarita Yesayan isə M. Zaxarovanın açıqlamasına daha sərt reaksiya verib. O bildirib ki, Ermənistanın özünün qəhrəmanları, tarixi var və kimin abidəsini harada və nə zaman qoymaq Ermənistan Respublikasının öz işidir: **"İstənilən Rusiyalı məmur tərəfindən verilən istənilən açıqlama qəbuledilməzdir. Qoy özlərinə, öz abidə və tarixlərinə baxsınlar. Öz tariximizin sahibi yalnız biz özümüzük".**

Bəs abidə qalmaqalı Rusiya-Ermənistan münasibətlərinə soyuqluq gətirə və Moskvanı İrəvanı cəzalandırmağa sövq edə bilərmi?

Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, abidəsi ucaldılan ermənilər sovet ordusuna qarşı döyüşlərdə iştirak edib və onların iştirak etdiyi döyüşlərdə sovet ordusuna ciddi zərbələr vurulub: "Rusiya belə bir şəxslərə Ermənistanda abidə ucaldılmasını, onların qəhrəman adlandırılmasını haqlı olaraq etirazla qarşılayıb. Rusiya öz forpostu olan Ermənistanın bu hərəkətini həzm edə bilmir. Güman ki, etirazlar artacaq. Ermənistanın bu addımı sovet dövrünün üstündən xətt çəkmək, Rusiyaya, rus xalqına meydan oxumaq kimi qəbul edilir. Həqiqətən də Ermənistan bununla Rusiyaya meydan oxuyur. 1941-1945-ci ildə faşizm əsasən ruslara qarşı idi. İndi belə çıxır ki, ermənilər faşizmin qurbanı olmuş on minlərlə rusun məhv edilməsində iştirak etmiş adamları qəhrəman elan edir. Bununla da faşizmin qurbanı olmuş insanlara, Rusiyaya hörmətsizlik göstərilir. Rusiya hakimiyyəti və ictimaiyyəti faşizm məsələsində həssasdır və güman ki, Ermənistana etirazları davam edəcək. Ermənistan heykəl ucaltmaqla ruslara qarşı mübarizə apardıqlarını qəhrəmanlıq hesab etdiklərini ortaya qoymuş olublar. Ermənistan özünün Sovet İttifaqı və ruslarla bağlı 70 illik tarixinin bir parçasını sanki silib kənara tullayır. Rus dövləti və xalqı bunun fərqində olmalıdır. Bu hadisə həm də onu göstərir ki, Ermənistan cəmiyyətində Rusiyaya qarşı, Rusiya ilə birlikdə olduqları dövrə qarşı nifrət var. Üzdə müəyyən yaltaqlıq göstərib Rusiyadan imtiyazlar qoparmağa çalışsalar da əslində erməni xislətinə xas olan bir tərzdə öz nifrətlərini büruzə verirlər. Diqqət etdinizsə, erməni deputatlar və onların Xarici İşlər Nazirliyi Rusiyanın Xarici İşlər Nazirliyinin narahatlıq ifadə edilən açıqlamasına meydan oxuyan tərzdə cavablar veriblər. Ermənilər artıq Rusiyanın tarixini təftiş eləməyə başlayıblar və bu tarixdə çox şeyi qara rənglərlə təsvir edib bunu Rusiyaya qarşı istifadə etməkdədirlər".



**Politoloqa görə, Rusiya bilməlidir ki, məqamı yetişəndə ona ən böyük xəyanəti Ermənistan, ermənilər edəcək, Rusiyaya arxadan zərbə vuracaq:** "Rusiyanı ən həssas nöqtəsindən onlar artıq mayın 28-də abidə açılışını etməklə vurublar. Kiçik bir Ermənistan faktiki olaraq Rusiyanın, rus xalqının mənəvi dəyərlərini ələ salır. Heykəl məsələsinin Rusiya-Ermənistan münasibətlərinə soyuqluq gətirəcəyi gözləniləndir. Ruslar onların dəyərlərinin ələ salınmasını heç də xoşluqla qarşılamırlar. Ən azından ermənilərə bir yaxşıca qulaqburması veriləcək. Sovet xalqına qarşı vuruşan faşistlərə böyük abidə ucaldan və onları qəhrəman elan edən bir ölkəni Rusiya, hər halda, cəzalandıracaq".

**Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev də məsələyə münasibət bildirib. H. Hacıyev APA-ya açıqlamasında bildirib ki, alman faşist SS generalı Njde Qaregin və "Dro" ləqəbi ilə tanınan Drastamat Kanayanın, habelə ASALA terrorçusu Monte Melkonyanın "milli qəhrəman" kimi təbliğ edilməsi, onların adlarının əbədiləşdirilməsi Ermənistan rejiminin əsl mahiyyətini açıq şəkildə göstərir:** "Njde Qaregin və Drastamat Kanayan 1918-20-ci illərdə tarixi Azərbaycan torpağı olan Zəngəzurda mülki əhaliyə qarşı törətdikləri qırğınları alman faşist ordusunun tərkibində xüsusi amansızlıqla II Dünya müharibəsində işğal olunmuş SSRİ ərazilərində yəhudilərə, ruslara və digər millətlərə qarşı davam etdirib. Faşistlərin irqi ayrı-seçkilik, "Ari" irqi və anti-semitizm ideologiyasina sahib çıxaraq, Njde Gareginin formaşdırdığı irqçi təmayüllü şovinist erməni milli məfkurəsi bu gün Ermənistanın hakim Respublika Partiyasının və nəticə etibarilə də Ermənistan hökumətinin ideoloji təmayülünü təşkil edir. Dəhşət doğuran hal odur ki, "Njdeizm" adı altında bu irqçi ideologiya Ermənistanda orta və ali məktəb proqramına daxil edilib və gənc nəsil bu ruhda tərbiyə edilir.

Ermənistanın faşizmin qəhrəmanlaşdırılması kimi əməlləri, o cümlədən 28 may 2016-cı il tarixində ölkə rəhbərliyinin iştirakı ilə Njde Qaregınə İrəvanın mərkəzində böyük abidə qoyulması II Dünya müharibəsində faşizmə qarşı mübarizədə həlak olmuş milyonlarla insana, onların yaxınlarına və veteranlara hörmətsizliyin ifrat nümunəsidir".

Nazirlik sözçüsü deyib ki, "Nazismin qəhrəmanlaşdırılması, irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və onunla bağlı olan dözümsüzlüyün təşviqinə xidmət edən neonasizm və onun digər növlərinə qarşı mübarizə" adlı BMT Baş Assambleyasının A/RES/70/139 nömrəli, 17 dekabr 2015-ci il tarixli qətnaməsi və digər sənədlər əsas tutularaq beynəlxalq ictimaiyyət tərəfindən Ermənistanın bu əməllərinə düzgün qiymət verilməlidir.

❑ Etibar SEYİDAĞA

# Ermənistanda nasist sevgisi: ölkəmiz üçün şans

**Azərbaycanın hərbi uğuru ilə bitən 4 günlük müharibədən sonra Ermənistanda Rusiyaya qarşı özünü göstərməyə başlayan etiraz dalğası davam edir. Öz mövcudluğuna, ölkəmizə qarşı işğalçılıq siyasətinə görə müstəsna olaraq Rusiyaya minnətdar olmalı olan bir dövlətin toplumu beləcə, nankorcasına ağasına etiraz püskürməkdədir - bunun ağır bədəlini ağlına belə gətirmədən.**




## İrəvanın heykəl yanlışı, Bakının uduşu - İsrail Azərbaycana yeni silahlar verəcək

### Faşist cəlladına İrəvanda abidə ucaldılması ətrafında qalmaqal böyüyür; Rusiya əleyhinə etirazlar Kremlin öz müttəfiqinə qəzəbini artırıb; olay yəhudi toplumunda da etiraz doğurub; **erməni analitik:** “Moskva Qarabağı Bakıya qaytarmaq üçün səbəb axtarır...”

Belə ki, dünən Ermənistan parlamenti qarşısında Ermənistan-Rusiya birgə hava hücumundan müdafiə sisteminin (HHM) yaradılmasına qarşı aksiya keçirilib. Aksiya iştirakçıları öz əllərində “Torpağı, havanı verməyəcəyik!”, “Permyakovlar ordusuna güvənmirik, erməni ordusuna güvənirik!”, “Növbəti satqınlıq addımı!” yazılmış plakatlar tutublar.

Aksiyanın iştirakçılarından biri Tiqran Xzmalyan deyib ki, sazişin imzalanması ilə Ermənistan hədəf olacaq. “Sazişin imzalanması səhv addımdır, xəyanətdir. Bu razılaşmanı imzalamaqla biz yalnız Azərbaycana deyil, bütün dünyaya müharibə elan edirik”, - Xzmalyan deyib. Onun sözlərinə görə, bu razılaşma ilə Ermənistanın gələcəyi sakit şəkildə Rusiyaya satılacaq.

Qeyd edək ki, dünən Ermənistan parlamentində keçirilən növbədənkənar sessiyada Ermənistan-Rusiya birgə hava hücumundan müdafiə sisteminin yaradılması məsələsi də müzakirə olunub.

***

Etirazçıların qaldırdıqları, səsləndirdikləri şüarlarda əlbəttə ki, müəyyən həqiqət var. Ancaq “Rus ordusuna güvənmirik, erməni ordusuna güvənirik!” kimi iddialar quru pafosdan savayı bir şey deyil. Çünki az qala uşaq da bilir ki, Ermənistan Rusiyanın dəstəyi olmadan qonşu ölkənin ərazilərini işğalda saxlamaq gücündə deyil və Azərbaycanın önündə duruş gətirə bilməz. Elə bu reallığı bildiyi üçün də rəsmi İrəvan ictimai etirazlara rəğmən, Moskva ilə ənənəvi münasibətləri saxlamağa çalışır, strateji olaraq kursu saxlayır.

Amma Sərkisyan iqtidarı hakimiyyətini qorumaq üçün ictimai ovqatı ciddiyə də almaq zorundadır. Ermənistanda II Dünya müharibəsi zamanı nasistlər tərəfdə döyüşmüş Qaregin Njdenin abidəsinin ucaldılması, abidənin açılış mərasiminə prezident Serj Sərkisyanın şəxsən qatılması buna sübutdur.

Bəllidir ki, olay Rusiya tərəfinin sərt reaksiyasına səbəb olub - həm Rusiya ictimai-siyasi xadimləri, həm də Rusiya XİN səviyyəsində məsələyə neqativ münasibət bildirilib. Bir çox analitiklər isə faktın hətta İrəvan-Moskva münasibətlərinin pozulması ilə nəticələnə biləcəyi, Qarabağ məsələsində Azərbaycanın mövqeyinin güclənəcəyi haqda proqnozlar səsləndirirlər.

**Lragir.am saytındakı məqalədə bu mövzuda yazan siyasi ekspert Naira Ayrumyan isə Rusiyanın Dağlıq Qarabağ məsələsində Azərbaycana dəstək vermək üçün İrəvanla biləıəkdən münasibətləri pozduğu iddiasını irəli sürüb (publika.az ):** “Rusiya münaqişəni Azərbaycanın xeyrinə həll etmək istəyir və indiki məqamda bunun üçün ona Ermənistanla münasibətləri korlamaq lazımdır. Qaregin Njdeyə abidə qoyulması bu məsələdə ciddi səbəb oldu. Belə görünür ki, Moskva İrəvanı vurmaq üçün bütün üsullardan istifadə etməyə çalışır, amma Ermənistan Rusiyanı inadla özünün müttəfiqi adlandırır”.

**Erməni şərhçiyə görə, Ermənistan Qarabağ məsələsində ciddi güzəştlərə məcbur ediləcək:** “Yaxşı münasibətlər fonunda Rusiya Ermənistanı buna məcbur edə bilmir. Onun üçün də Ermənistanı özünə düşmən edərək, onu intihara sövq edir. 1990-cı illərdə Qarabağ münaqişəsinin nizama salınması üçün iki variant - paket və mərhələli həll variantları təklif olunurdu. Həmin dövrdən sonra Rusiya Ermənistanı tamamilə ələ keçirdi. Kommunikasiya, energetika və digər mühüm sahələr rusların əlindədir. Ermənistan buna qarşı müqavimət göstərməməyi üstün tutdu. Buna görə də Rusiya Ermənistanı Qarabağ məsələsində güzəştə getməyə məcbur etmədi. 1998-ci ildə isə Qərb tərəfindən "ümumi dövlət" variantı təklif olundu. Hansı ki, bunu Azərbaycan rədd etdi. Güman ki, bu variantın təklif olunmasından sonra Bakı Rusiyaya məxfi nümayəndələr göndərərək, Moskvanın daha əlverişli olan təklifləri haqda düşünməyə başladı. 2011-ci ildə rusların irəli sürdüyü “Kazan sənədi” də rədd olundu. Çünki bu daha çox Rusiyanın maraqlarına xidmət edirdi. Sonra Rusiya Ermənistanı Avropa Birliyindən imtina edərək, Avrasiya İttifaqına daxil olmağa məcbur etdi. Bütün bunlara baxmayaraq, rəsmi İrəvan lal olub susdu, heç bir etiraz bildirmədi. Aprel müharibəsindən sonra isə Ermənistan Rusiyaya, sadəcə, kiçik etiraz etdi, lakin münasibətləri korlamadı. Rusiya isə bu illər ərzində Qarabağı Azərbaycana qaytarmaq üçün səbəblər axtarır. Görünür, İrəvanda bir nəfərə qoyulan abidə bunun üçün əsas ola bilər”.

***

**Öz növbəsində rusiyalı tanınmış politoloq Andrey Yepifantsev abidə olayına bir qədər fərqli rakursdan yanaşır.** “Baxmayaraq ki, Njde əvvəllər ermənilər arasında heç də ən nüfuzlu və sayılan xadim olmayıb, amma indi - Rusiyadan narazılıq fonunda Ermənistanda əks reaksiya gedəcək: cəmiyyətin onun ətrafında səfərbər olunması, bütövlükdə anti-Rusiya ovqatının güclənməsi prosesi gedəcək. Bu da Ermənistanın Qarabağ məsələsində Kremldən ifrat gözləntilərinin reallaşmaması ilə bağlıdır. Onu da istisna eləmək olmaz ki, nasist əlaltısı Njde ətrafında qalmaqal İsrailin də narazılığına səbəb olacaq və Bakıya yəhudi dövləti tərifindən yeni partiya müasir silahların verilməsinə gətirə bilər”, - deyə politoloq öz facebook səhifəsində yazıb.

Yeri gəlmişkən, İsrailin təzə müdafiə naziri Azərbaycanın dostlarından və lobbiçilərindən sayılan Avidqor Libermandır.

Artıq 2-ci Dünya müharibəsinin israilli veteranları da Qaregin Njdeyə İrəvanda abidə qoyulmasına sərt reaksiya verib, hadisədən hiddətləndiklərini bildiriblər. Nasizmlə Mübarizə Ümumisrail Veteranlar Birliyinin başçısı Avraam Qrinzayd bu xüsusda vurğulayıb ki, nasist əlaltılarından hər hansı şəkildə qəhrəman obrazı düzəldilməsi rəzillik və qəbuledilməzdir...

***

Əslində işğalçı ölkədə, erməni toplumunda yəhudi xalqına qarşı soyqırım həyata keçirmiş SS-çilərə, faşistlərə sevgi hissləri təəccüblü deyil. Xocalı soyqırımını yada salmaq kifayətdir.

❑ **Siyasət şöbəsi**

# Tramp üçün tramplin



**Xalid KAZIMLI**

**ABŞ tarixinin ən qanlı, çoxqurbanlı qətliamlarından biri olan Orlando teraktının bütün detalları bir yana qalıb, dünya prezidentliyə namizəd Donald Trampın bu hadisədən uduşlu çıxmasından danışır. Hələ qətlin motivləri düz-əməlli bəlli deyil, detalları araşdırılmaqdadır, ancaq siyasi nəticələr ortadadır və yekun qənaət budur: bu cinayəti törədən müsəlmandır və bu, ən çox Trampa sərf edir.**

Qədim Romada üstübağlı cinayətləri açmaq üçün adətən belə bir nəzəri sual qoyarmışlar: “Cinayət kimə sərf edir?” *(Bu düstur hələ də keçərlidir və işə yarayır)*.

Bu prizmadan yanaşsaq, onda cinsi azlıqların klubunda törədilən qətliamın izinə düşüb Trampa tərəf getmək olar.

Çünki bundan əvvəl də müsəlmanlara, gəlmələrə qarşı sərt çıxışlar edən Tramp “düzgün mövqe”də olmasına dair tutarlı sübut əldə edib. İndi onun qarşısında durmaq çətindir. Bəlkə bu sübutu o, özü özünə hədiyyə edib?

Güman ki, bunu iddia edənlər tapılacaq. ABŞ demokratiyasını sevməyənlər, ABŞ-ı dünya hegemonu, baş imperialist dövlət sayanlar bu fürsəti qaçırmayacaqlar. Konspirativ nəzəriyyələr həvəskarları artıq gizli bağlılıqlar, inandırıcı motivlər, gözlə görünməyən əlaqələr axtarışındadır.

Bəs gerçəkdən də belə bir şey ola bilərmi? İstisna etmək olmaz. Böyük siyasət böyük oyunlar deməkdir, hər şey ola bilər.

Ancaq əsas məsələ odur ki, belə bir ortam var. Özü də bunu dünyanın bir çox ölkələrində olan Tramp və ona bənzər siyasilər yaradıb. Ayrı-ayrı siyasi dairələr öz dövlətinin, milli ideologiyasının üstün duruma gəlməsi, nüfuz dairəsinin genişlənməsi üçün hər cür qətliamlara, müharibələrə qol qoya bilirlər.

Dünya ikinci böyük faşizm dalğasına hamilədir. Bunun tətikçisi istibdad rejimləridir. Məhz onların ədalətsiz, amansız, yarıtmaz idarəçilikləri üzündən milyonlarla insan öz ölkəsində yaşaya bilmir, xarici ölkələrə səpələnir, ancaq sığındıqları cəmiyyətə adaptasiya olunmaq istəmir, şovinizm müstəvisində birləşirlər. Nəticədə onlara qarşı özünümüdafiə instinktindən doğan faşizm dalğası kükrəyir.

Tramp və onun kimilər millətçi şüarları boş yerə səsləndirmirlər, ictimaiyyətin narahatlığından xəbərdardırlar və o şüarların gurultulu alqışlarla qarşılanacağını bilirlər.

Tərs kimi, bir çox müsəlman ölkələrinin liderləri, eləcə də radikal terrorçu qruplaşmaların liderləri Tramp kimilərin çörəyinə yağ sürtürlər.

Budur, İŞİD qruplaşması cinsi azlıqlarla dolu klubda qırğın törətmiş əfqan əsilli terrorçu Ömər Mətinə sahib çıxır və bu addımı ilə nəinki ABŞ müsəlmanlarını, həm də dünya müsəlmanlarını hədəfə çıxarır.

Əlbəttə, Ömər Mətinin, eləcə də ayrı-ayrı ölkələrdə radikal dini şüarlarla çıxış edərək terror aktı törədənlərin islam ideologiyasına, müsəlmanlara aidiyyatı yoxdur. Dünyada terrora qarşı olan milyonlarla müsəlman var.

Ancaq terrora qarşı olan müsəlmanlar susursa, terroru dəstəkləyənlər boy göstərirsə, törədilən teraktları dəstəkləmə aksiyaları kütləvi hal alırsa, onda vəziyyət dəyişir, elə çıxır ki, müsəlmanların əksəriyyəti terrora tərəfdardır.

Fransada Le Penin, İsveçdə mühafizəkarların, Avstriyada neo-faşistlərin, İngiltərədə, Almaniyada ultra-millətçilərin get-gedə güclənməsi, xalqdan daha çox səs qazanmaları göstərir ki, bir şeylər qaydasında deyil. Belə olduqda həmin qüvvələr xalqın total narahatlığından, məruz qaldıqları basqıdan yararlanaraq, özləri üçün sabit elektoral baza düzəldə bilirlər.

Ona görə də artıq Donald Trampın şansının yüksələn xətt üzrə olması təəccüb doğurmur. Hətta üzü seçkilərə doğru ABŞ-da bənzər olaylar baş versə, Tramp xanım Klintonu çətinlik çəkmədən məğlub edəcək. O, dini ekstremistlərin onun üçün düzəltdikləri tramplindən sıçrayaraq ABŞ prezidenti kreslosuna qona bilər.

Ondan sonrasını təsəvvür etmək üçün geniş təxəyyül lazımdır. Onsuz da xaos yaşanan dünyada elə bir hərc-mərclik yarana bilər ki, qlobal siyasi-iqtisadi, eləcə də humanitar böhranlar yaranar.

Xristian və müsəlman dünyasının ortasından hasar çəkmək mümkün deyil. Bunu etmək mümkün olsa belə, bu hasar yalnız müsəlman dünyasının zərərinə olacaq.

YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016





# “Bəzən düşünürsən ki, o bomba real olmalı, tapılmalı, partlamalı idi...”

## Şahbaz Xuduoğlu “Qanun” nəşriyyatındakı “bomba əməliyyatı”nın detallarından danışır

**“Qanun” nəşriyyatında aparılan yoxlama, “bomba” axtarışı ilə bağlı keçirilən əməliyyat artıq yekunlaşıb. “Yeni Müsavat”ın əməkdaşı dünən səhər saatlarında nəşriyyatın binasında olanda içəridə bu prosesdən hər hansı iz, əlamət qalmamışdı. İşçilər əvvəlki qaydada çalışır, nəşriyyatın rəhbəri Şahbaz Xuduoğlu isə iş başında idi. Üstəlik, ətrafda polis geyimli heç kəs görünmürdü. Amma yaşanan çaşqınlığın, narahatçılığın izləri işçilərin üzündə hiss olunurdu. Hər an qapını polis döyəcək, yenə iş prosesi yarıda kəsiləcək... deyə əksəriyyətin gözü qapıda qalmışdı.**

*Ş.Xuduoğlu isə deyir ki, bu günə qədər üzləşdikləri təzyiqlər çoxsaylı dəyərli işçilərinin işdən çıxması ilə nəticələnib. “Heç də hər kəs bu cür təzyiq altında, gərginlikdə çalışmaq istəmir” deyən nəşriyyat rəhbəri son iki gündə yaşanan “bomba həyəcanı”nın isə Ə.Haqverdiyevin “Bomba” hekayəsindən çox az fərqləndiyini deyir.*

***- Şahbaz bəy, bilməyənlər üçün öncə hadisənin necə baş verməsi, detalları ilə bağlı danışaq...***

- Şənbə günü saat 19:00 radələrində bir qrup polis - bəziləri mülki, bəziləri polis geyimində - binaya daxil olublar. Həmin saat işdən sonrakı vaxtdır. Yalnız binanın yuxarı mərtəbəsində oturan vəkillər və bir neçə qurumun işçiləri binada olub. Nəşriyyat isə ümumiyyətlə işləməyib. Nəşriyyatın önündə dayanan gözətçinin telefonunu alıblar, özünü də binadan uzaqlaşdırıblar.

***- Bunu necə izah ediblər?***

- Deyiblər ki, binada bomba var. Əvvəlcə istəyiblər ki, içəridə olanları bayıra çıxarsınlar. Sonra isə içəridə olanları elə içəridə saxlayıblar. Bayırdan qapını bağlayıblar. Bir neçə polis nəfəri içəri girib, binanı dövriyyəyə alıb və nəzarətə götürüblər. Sonra bu barədə mənə məlumat verdilər. Bu, mənə polis tərəfindən verilən məlumat deyildi, işçilərdən xəbər gəldi. Mən uzaqda idim, amma bildirdim ki, əgər həqiqətən binada bomba varsa, onu zərərsizləşdirsinlər, mənim buna etirazım yoxdur. Bir azdan xəbər aldım ki, içəridə olan adamları bayıra çıxmağa qoymurlar. Onda başa düşdüm ki, əgər bu binada partlayıcı qurğu varsa, içəridəki bütün adamlar bayıra çıxarılmalıdır. Bu bina, eləcə də ətrafdakı institutun binası köçürülməli, yoldakı gediş-gəliş qadağan olunmalı, bütün təhlükəsizlik tədbirləri görülməlidir. Bina xüsusi mühafizəyə götürülməlidir. Bunların heç biri baş vermədiyi üçün anladım ki, burda bomba axtarışından söhbət getmir, nəsə başqa bir söhbət var. Onda dedim ki, nəzarətdə saxlamaq istəyirlərsə saxlasınlar, mənsə uzaqdayam, bu gün gələ bilmirəm. Əgər axtarışı bizim iştirakımızla aparmaq istəyirlərsə, sabah biz də iştirak edərik. Gecə polis binanı nəzarətə götürdü.

***- Polis içəridə idi?***

- Xeyr. Sadəcə, binanın açarını gözətçidən almışdılar. Özünü binadan kənarlaşdırıb, telefonunu da götürmüşdülər. Bina isə bütün gecə onların nəzarətində idi.

***- Yəni bu müddətdə onların həmin binada nəsə axtarmaq imkanları da var idi?***

- Əlbəttə. Onlar hansı otağın qapısı açıq idisə, ora girmişdilər. Hara baxmaq mümkün idisə, baxmışdılar. Mən günorta saat 1-də nəşriyyatın binasına gəldim. Baş verən proseslərlə bağlı facebook səhifəmdə status yazdım, saat 14.00-a isə mətbuat konfransı təyin etdim. Saat 2-nin yarısı cinayət axtarış idarəsinin rəisi, rəis müavini burda idilər. Bütün komanda olaraq axtarışa hazır olduqlarını bildirdilər. Nəşriyyatda gördüyünüz ğız və listlər aparıldı.

***- Bəs bunu nə ilə izah etdilər? Məntiqlə bomba axtarışının nəticəsi bu olmamalıdır axı...***

- Onlar dedilər ki, “ümumiyyətlə, bizə bu cür məlumatlar daxil olur. Psixi sağlam olmayan adamlar da zəng edir, məlumat verirlər və biz gəlirik. Bəzən hadisə yerindən onların dedikləri yox, demədikləri məsələlər də aşkarlanır. İndi biz çağırış üzrə gəlmişik. Bomba axtarırdıq, amma indi bomba da olmasa, bizim



### “Əslində biz ailədə də bir-birimizin yanında dayanan, birinə bir şey olanda o biri tez müdafiəyə qalxan... olmamışıq”



stollara, stullara, vərəqlərə, əl yazılarına baxış keçirildi, axtarıldı. Mənim otağımda da hər yer axtarıldı. Hətta illərdən bəri üzünə baxmadığım vərəqlər, əlyazmalar belə üzə çıxdı (gülür).

***- Və son ana qədər iddia olundu ki, o vərəqlərin, əlyazmaların arasında da bomba axtarırlar...***

- Bəli. Biz işçiləri də çağırmışdıq. Bir nümayəndə otaqların qapısını açırdı, onlar baxış keçirirdilər.

***- Axtarış nə qədər davam etdi?***

- 4-5 saat.

***- Sonuc? Axtarış yekunlaşdı, hər şeyi sənədləşdirdilər və sizə nə dedilər?***

- Sonra mətbəəni də araşdırdılar. Ordan təqribən 300-400 vərəq apardılar. Eyni zamanda dəmir təbəqələr. Dəmir təbəqə nədir? Dəmir təbəqə çap makinasının üstünə taxılır və çap maşını işlədikcə dəmir təbəqənin üzündən köçürülür. Bu təbəqələr aparıldı və eyni zamanda çoxlu sayda tamamlanmamış çap məhsulları, digər kadiqqətimizi çəkən, təhqiqat üçün əhəmiyyətli ola bilən məsələlər var”.

***- Götürdükləri vərəqələr nə idi? Hansısa kitabın əlyazması, yoxsa?***

- İndi onlar bunu təhqiq edəcək və daha sonra bizə deyəcəklər. Bura mətbəədir. Orda illərlə yığılıb qalan sənədlər, kağızlar var. Ordan nə çıxacaq, bilmirəm.

***- Nəticəni nə zaman sizə deyəcəklər?***

- Konkret vaxt deməyiblər. Amma təhqiqatla bağlı sənədlər istəyiblər mühasibatlıqdan. Məndən də bu məsələ ilə bağlı hər hansı izahat alınar, ya alınmaz, onu dəqiq bilmirəm.

***- Sizin versiyanız nədir? Bu axtarış niyə baş verdi?***

- Əvvəlcə gerçəkdən nəşriyyata bomba qoyulması xəbərini eşidəndə, xüsusən də bu məlumatın 102-dən daxil olduğunu biləndə bunun gerçək olduğunu düşündüm. Dedim ki, ola bilər...

***- Bu qorxu nədən qaynaqlanırdı? Sizin nəşriyyata bombanı kim qoya bilər ki, məntiqlə?***

- Qorxu gündəlik həyatımızdır. İstanbulda hər gün baş verən partlayışlardır. Şəxsi deyildi. Düzdür, polislər deyirdi ki, bunu sizin düşmənləriniz də edə bilər. Mənsə elə hesab etmirəm ki, düşmənlərim var. İnsanın niyə düşməni olmalıdır ki? Kimsə kimisə sevməyə bilər, rəqabət baxımdan pislik edə bilər. Amma bu dərəcədə yox. Bu nəşriyyatda o qədər hadisələr olub ki, polislər indiyə qədər bu qədər canfəşanlıq etməyiblər. Məsələn, nəşriyyatda oğurluq olmuşdu, amma hələ də üstü açılmayıb. Üç müstəntiq dəyişib, ortada heç nə yoxdur. Onlar bu işi açmaqda maraqlı olmalı olduqları halda, sən onların ayağına düşürsən, işi açmaları üçün xahiş-minnət edirsən, faktlar toplayıb təhlil edirsən və sair. Baxırsan ki, gənc adamlardır, amma bu məsələdə özlərini laqeyd aparırlar.

***- Qayıdaq versiyanıza...***

- Mənim ilk versiyam həqiqətən bombanın olması ilə bağlı idi. Sevindim ki, nə yaxşı içəridə heç kim yoxdur, ziyan dəyməyəcək heç kimə. İkinci versiya isə hansısa çap məhsulu ilə bağlı idi. Dərhal beynimdən film lenti kimi burada çap olunan kitablar keçdi. Axı indi seçki prosesi deyil. Son belə hücum - vergi yoxlaması prezident seçkilərindən sonra oldu. Orda da çoxlu versiya vardı. Amma ən inandırıcı versiya Cəmil Həsənlinin seçki plakatlarının çap olunması idi. Bizim xüsusi məktubumuz var ki, nəyi çap edə bilərik, nəyi yox. Bu, hüquqi qüvvəsi olmayan, rəsmi sənəddir. Bunu yazılmamış qanun kimi qəbul edirik. Biz artıq bilirik ki, nələri çap etmək olar. Bunun xaricində isə yatıb yuxuda görməliyik ki, başqa nələri çap etmək olmaz? Ümumiyyətlə, mətbəə, çap işi ilə məşğul olanlar müvəqqəti dövr üçün siyasi gündəmə gəlmiş şəxsləri tanımırlar və heç tanımaq zorunda da deyillər. Gün axşama qədər bunlar çap işi ilə məşğuldur. Hardan tanısınlar siyasətçini?

***- Bəs indiki halda “hədəf kitab”, “hədəf persona” kimdir? Çap etdiyiniz kitablar arasında “təhlükəli” kateqoriyasına hansı girir?***

- Doğrusu, kitablar arasında çox düşündüm. Ağlıma elə bir kitab gəlmədi. Son dövrlər əsasən tərcümə nəşr edirik. Hətta düşündüm ki, bəlkə Saramaqonun “Korluq” əsərinə görə olub bu? Bəlkə hansısa hissə hansısa məmurun əlinə düşüb və nəyəsə görə onun çapını təhlükə bilib? Amma o kitabda da təhlükə olacaq heç nə yox idi. Biz başa düşürük ki, bomba tipli məlumatları FHN araşdırır, oranı zərərsizləşdirmək üçün xüsusi kurs keçmiş insanlar hadisə yerinə gəlir. Cinayət axtarış şöbəsi bura niyə gəlməlidir? Məndə ilk şübhə yaradan məqam da budur. Qardaşım Əlövsətlə bağlı *(Əlövsət Əliyev-red.)*, ona görə qurulmuş bir ssenari olması ehtimalı da vardı. Amma sonradan düşünürsən ki, şəxsi intiqamçılıq baxımdan belə bir kobud ssenari hazırlanması versiyası inandırıcı deyil. Bu işləri daha incə görmək olar. Onlar da bunu belə əsaslandırırlar ki, adətən belə çağırışlara biz getmişik. Çünki getdiyimiz yerlərdən heç vaxt bomba tapmamışıq. Ya da cəmiyyətdə gərginlik yaratmaq üçün belə bir ssenari qura bilərlər.

***- Bəs niyə siz hədəf seçilirsiz? Hansısa partiya, media orqanı və ya hüquq müdafiə təşkilatı yox, məhz sizin nəşriyyat?***

- Burda da bomba nəzəriyyəsi işə düşür də. Deyirlər ki, görürsən, cavan polislərin hərəsi bir yerdən silah, tüfəng tapır, bəs sən artıq qocalmısan, sən də bir şey tap. O da “bomba” tapır. Bu, cəmiyyətin genetik kodunda var - yarınmaq.

***- Qardaşınız Əlövsət bəyə görə olmayıb deyə düşünürsüz...***

- Əslinə baxsanız, son illərə qədər bizim Əlövsətlə fəaliyyətimiz heç zaman paralel və kəsişən xətlər üzrə olmayıb. Son illər bu şeyləri çox hallandırırlar - qardaş və sair. Əslində biz ailədə də bir-birimizin yanında dayanan, birinə bir şey olanda o biri tez müdafiəyə qalxan... olmamışıq. Məqsəd bomba tapmaq idisə, səbəblər bir neçə ola bilər.

***- Səbəblərdən biri kimi İlqar Məmmədovun yaxınlaşmaqda olan ad günü ilə bağlı sizin nəşriyyatda hazırlanan çap məhsulları göstərilir. Bununla bağlı REAL təşkilatının yaydığı bəyanatda da qeyd olunub.***

- Müsadirə olunmuş yarımfabrikat məhsullar, dəmir lövhələr var. Onların arasında arxiv sənədləri də yer alır, köhnə tarixə aid nəsə başqa materiallar da. Ümumiyyətlə, mətbəə nəşriyyatdan ayrı, müstəqil fəaliyyət göstərir. Orada elə materiallar var ki, sadəcə, kəsməyə, tikməyə, qatlanmağa gətirilir. Ola bilər ki, hər hansı material bizim nəşriyyatın məhsulu olmasın, amma müəyyən texniki proses bizdə davam etsin. Hazırda təhqiqat gedir, o sualın cavabı arasında İlqar Məmmədova aid materiallar da ola bilər, başqa materiallar da ortaya çıxa bilər. Nəşriyyatdan heç nə götürülməyib, mətbəədən götürülüb. Amma heç gələnlər də deməyiblər ki, onu axtarırlar. Təsəvvür edin ki, dünən işdən çıxıb gedəndə gördüm uniformalı 5-6 nəfər uzaqdan gəlir və dərhal düşündüm ki, onlar “Qanun”a gəlirlər. Sonra gördüm ki, “Azərsun”un işçiləridir, başqa tərəfə gedirlər. Artıq polis uniformalı şəxs görən kimi avtomatik düşünürəm ki, onlar “Qanun”a gəlirlər. Ayaq altına çeviriblər. Bu təzyiqin altında sən kitab buraxır, iş görürsən. Bəzən düşünürsən ki, o bomba real olmalı, tapılmalı, partlamalı idi (gülür).

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016



# Rusiya Qarabağın "açar"ını verəcəkmi?

## İyun görüşü ərəfəsində Ermənistan qarışıb, Qarabağda dərəbəylikdir, Azərbaycan isə hərbi üstünlüyünü artırır; Rusiyadakı görüş sonuncu ola bilər...

**Qarabağ danışıqlarının növbəti raundundan - Rusiyanın Sankt-Peterburq şəhərindəki görüşdən gözləntilər böyükdür. Yayılan məlumata görə, Azərbaycan, Ermənistan və Rusiya rəhbərliyi arasında üçtərəfli görüşün iyunun sonunda keçirilməsi planlaşdırılır. Almaniya kansleri Angela Merkelin Qarabağın açarının Rusiyada olduğu barədə dediklərindən sonra Moskva görüşünün həlledici ola biləcəyi ehtimalı da daha ciddi şəkildə səslənir.**

Qeyd edək ki, ATƏT-in fəaliyyətdəki sədri olan Almaniya liderinin sərgilədiyi bu mövqe həm də Qərbin razılaşdırılmış münasibəti kimi qiymətləndirilir. Hesab olunur ki, Qərb hazırkı durumda, xüsusilə də aprel gərginliyini səngitməyə nail olduqdan sonra Rusiyanın moderatorluğunun alternativini görmədiyi üçün Kremlə "stavka" etməyi qərarlaşdırıb. Ancaq bu da var ki, Rusiyanın bölgədəki maraqları, Ermənistanın hava məkanını da nəzarət altına alması, işğalçı ölkənin Qarabağdakı destruktiv davranışları və digər məsələlər proseslərin müsbət axarına ümid etməyə imkan vermir. Xüsusilə də düşmənin iyun danışıqları ərəfəsində yenidən aktivləşməsi savaş risklərini artırır. Bir neçə gün əvvəllə müqayisədə atəşkəsin pozulması halları da getdikcə çoxalır. Özü də düşmən daha çox Ermənistan-Azərbaycan sərhədi boyu atəşkəsi pozmağa üstünlük verir ki, bunun da səbəbi bəllidir. Düşmən var gücü ilə çalışır ki, Azərbaycanla Rusiyanı, paralel olaraq KTMT-ni üz-üzə qoysun. Ona görə də "özünün ərazi bütövlüyünə təhlükə yaradıldığı" görüntüsünü təqdim etmək üçün çeşidli təxribatlara əl atır.

İşğalçı ölkə adətən planlaşdırılan görüş ərəfəsində təxribat-diversiya hərəkətlərinə əl atır və danışıqlarda üstün mövqedən çıxış etməyə çalışır. Bu dəfə də analoji addımlar gözlənilir. Azərbaycan tərəf düşmənin hətta əks həmləyə keçməsi ehtimalını da nəzərə alaraq mövqelərini gücləndirir.

Bugünlərdə müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun olaraq Silahlı Qüvvələrin Mühəndis-İstehkam Qoşunlarının döyüş hazırlığı təlimi keçirilib. Məlumata görə, təlimin keçirilməsində əsas məqsəd mürəkkəb əməliyyat şəraitində hərbi əməliyyatın mühəndis təminatının yerinə yetirilməsi ilə bağlı komandirlərin bacarığını və bölmələrin idarə edilməsini praktiki fəaliyyətdə yoxlamaq, qərargahların döyüşə hazırolma dərəcələrinə gətirilmə vərdişlərini təkmilləşdirmək, yaranmış şəraitə uyğun əsaslandırılmış qərar qəbul etmək, vəziyyəti qiymətləndirməkdir. Həmçinin şəxsi heyətin bölmələr tərkibində mühəndis təminatı tapşırıqlarının yerinə yetirilməsi zamanı onların mənəvi-psixoloji dözümlülüyünü artırmaq da əsas məqsədlərdən olub. Plana əsasən, əvvəlcə hərbi hissə döyüşə hazır vəziyyətə gətirilib və əməliyyatın mühəndis təminatının yerinə yetirilməsi üzrə tapşırıqlar məşq edilib. Bölmələr birbaşa təyinatları üzrə praktik məşğələdə iştirak edib, şəxsi heyətə xüsusi avadanlıq, mühəndis qoşunlarında silahlanmaya yeni qəbul edilmiş müasir texnika və vasitələr barədə məlumat verilib. Burada tank körpüquranları, maneələgvetmə texnikası, partlamayan maneələr və mühəndis döyüş sursatlarının yeni növləri nümayiş edilib. Həmçinin ponton-körpü salmaqla su maneələrinin keçilməsi, maneələgvetmə və mühəndis yol bölmələri tərəfindən mina sahələrində əl və partlayış üsulu ilə keçidlərin açılması, məftil maneələrin dəf edilməsi və s. praktiki olaraq yerinə yetirilib. Bölmələrin fəaliyyəti yüksək qiymətləndirilib.

Tərəflərin müharibə hazırlığından Moskvada da məlumatlıdırlar və minimum nəticələrə hesablanmış da olsa, bir görüşün keçirilməsinə hazırlıqlar müşahidə olunur. Düzdür, Rusiya XİN-in mətbuat katibi Mariya Zaxarovanın dediklərindən belə çıxıb ki, Moskva özü də münaqişənin həllində "açar" rolunu oynamaq istəmir. Bu mənada diplomatın "bu, kompliment kimi səslənir ki, Rusiya Qarabağ münaqişəsinin həlli məsələsini öz əlinə alıb. Biz heç kimi dialoqdan çıxarmırıq. Fikir mübadiləsi edirik, söhbət edirik, əlaqə saxlayırıq və həmsədrlərin rolunu yüksək qiymətləndiririk. Biz mövcud formatda fəal işləyirik" - sözləri də bundan xəbər verir. Moskvanın bundan əvvəl Azərbaycan və Ermənistana "münaqişənin həlli özünüzdən asılıdır" məzmunlu mesaj verməsi də unudulmamalıdır.

**"Bundan əvvəlki görüş Qərbdə baş tutduğuna görə Moskva budəfəki görüşün Rusiyada reallaşmasını çox istəyir". Bunu isə Kremlə yaxınlığı ilə tanınan rus politoloq Sergey Markov** deyib (ANS) S.Markovun fikrincə, görüş iyunun ortalarında, yəni 16-18 iyunda Sankt-Peterburqda beynəlxalq iqtisadi forum çərçivəsində də mümkün ola bilər. Rusiya prezidenti Vladimir Putinin iştirak edəcəyi bu foruma Azərbaycan və Ermənistan prezidentləri də dəvət edilib. Düzdür, Markov bundan əvvəl də optimistcəsinə demişdi ki, ilin sonuna qədər qaçqınlar öz evlərinə dönə biləcək, o mənada rus politoloqun dedikləri tam səhih sayılmamalıdır.

***

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, prezidentlərin görüşündə artıq konkret məsələlərə keçməyin vaxtı çatıb:** "Yeni ATƏT-in Minsk Qrupunun həmsədrləri də daxil olmaqla, kifayət qədər verilən bəyanatlar öz həllini tapmalıdır. Zənnimcə, cənab İlham Əliyev bu görüşə istər Madrid prinsipləri, istər Kazan danışıqları, istərsə də son Vyana danışıqlarının artıq konkret həllinə keçilməsi gözləntisi ilə gedir".



**Arzu Nağıyev:** "Məsələnin ərazi bütövlüyümüz çərçivəsində həlli Azərbaycanın birinci şərti olaraq qalır"

**Siyasi təhlilçi xatırlatdı ki, ermənilər cidd-cəhdlə qondarma qurumu tərəf kimi danışıqlara qatmaq istəyirlər:** "Təbii ki, bu, alınan deyil. Bundan başqa, məsələnin ərazi bütövlüyümüz çərçivəsində həlli Azərbaycan tərəfinin birinci şərti olaraq qalır. Yəni Azərbaycan tərəfinin gözləntiləri konkretdir". **A.Nağıyev Almaniya kansleri A.Merkelin bəyanatında Rusiyaya önəm verilməsinin səbəblərinə də toxundu:** "Kansler çox diplomatik bir tərzdə Rusiyanın münaqişənin yaranmasında həmmüəllif olduğunu vurğuladı və buna görə də Moskvanı bir açar fiqur kimi göstərdi. Bu əvvəldən də məlum idi. Məhz buna görə də Rusiya prezidenti Putin belə bir görüşün, məhz belə bir formatda keçirilməsi təşəbbüsünü irəli sürdü və təbii ki, burada regionda nüfuz məsələsi də önəm kəsb edir. Rusiya münaqişənin həllinin müsbət sonluğunda maraqlı olduğu kimi, eyni zamanda əleyhinədir. Çünki münaqişə həll edilsə, Moskva Sərkisyan və onun komandasını itirə, digər tərəfdən isə silah bazarında vəsait itkiləri ilə üzləşə bilər. Buna görə də Rusiya sona qədər maraq göstərməyəcək və itirəcəklərini kompensasiya etmək üçün müəyyən dividentlər qazanmağa çalışacaq. Elə buna görə də görüş ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərinin qərarına əsasən, ABŞ, Rusiya və Fransa xarici işlər nazirləri ilə baş tutacaq formatdan fərqlənir. Sankt-Peterburqda gözlənilən görüş məhz buna görə Moskva tərəfindən irəli sürülüb və bir sıra mətləblərdən xəbər verir".

**Düzdür, Ermənistanda və Qarabağda vəziyyət heç də Ermənistan hakimiyyətinin xeyrinə cərəyan etmir. Ötən ilin iyun ayında Moskvadan Dağlıq Qarabağa köçən, sonra isə peşman olan məşhur rusiyalı biznesmen German Sterliqov bugünlərdə deyib ki, hazırda insanlar Qarabağdan qaçırlar və bu, çox pis haldır:** "Bu, şübhəsiz ki, Dağlıq Qarabağ hökumətinin işindəki çatışmazlıqdan irəli gəlir. Əgər bu, belə davam etsə, yeni insanlar Qarabağdan qaçmağa davam etsələr, azərbaycanlılar sərbəst şəkildə həmin boş ərazilərə girəcəklər. Çünki burada heç bir yerli əhali qalmayacaq".

Üstəlik, ermənilər Qarabağda ölməmək üçün variantlar axtarırlar. Sərkisyan rejimi erməniləri hətta muzdla da Qarabağda saxlamaqda çətinlik çəkir. Məlumata görə, Ermənistan vətəndaşı olan 6 əsgər qondarma Dağlıq Qarabağın müdafiə ordusunun hərbi hissə və batalyon komandirlərinin əmrlərinə tabe olmaqdan imtina ediblər. Buna görə də Ermənistanın Sünik vilayəti məhkəməsində cinayət işinin araşdırılması prosesi aparılır. Qondarma Dağlıq Qarabağın müdafiə ordusu sıralarında həqiqi hərbi xidmət keçən Vartan Balyan, Sevak Ayrapetyan, Mxitar Akopyan, Kamo Kazaryan, Vitali və Andranik Bəyləryan Ermənistan vətəndaşı olmalarını əsas gətirərək Qarabağda hərbi xidmətdən boyun qaçırıblar. Bundan əlavə, əsgər analarının Sərkisyanın evi və iqamətgahı qarşısında növbəti aksiyası da keçirilib. Ermənilər övladlarının Qarabağda xidmət etməsinə etiraz edirlər. Xüsusilə də apreldəki itkilər və növbəti danışıqların uğursuz olacağı halda, savaşın başlayacağı xəbərdarlığı düşmən ölkədə həyəcan doğurub.

İyunun 13-də Ermənistan parlamentinin qarşısında da aksiya keçirilib. Bu aksiya isə Ermənistan-Rusiya birgə hava hücumundan müdafiə sisteminin yaradılmasına etiraz məqsədi daşıyıb. Ermənistan parlamentinin növbədənkənar sessiyasında yeni sistem üzrə sazişin səsverməyə qoyulması ilə əlaqədar etirazlar sərgilənib. Aksiya iştirakçıları əllərində "Torpağı, havanı verməyəcəyik", "Permyakovlar ordusuna güvənmirik, erməni ordusuna güvənirik", "Növbəti satqınlıq addımı" yazılmış plakatlar tutublar. Onlar hökuməti növbəti satqın razılaşmanı imzalamaqda günahlandırıb. Erməni etirazçıların sözlərinə görə, bu razılaşmanı imzalamaqla, Ermənistan nəinki Azərbaycana, bütün dünyaya müharibə elan edib. İşğalçı ölkədə hesab edirlər ki, bu saziş ermənilərin "gələcəyini ruslara satır".

Əslində Ermənistan onu təhlükələrdən sığortalayan Rusiyanın himayəsinə sığınmağa məcburdur. Sadəcə, Sərkisyan rejimi bu yolla Rusiyaya direniş görüntüsünü yaradıb Qərbdən əlavə dəstək qazanmağa, üstəlik, Rusiyadan daha çox güzəştlər qoparmağa çalışır. Eyni zamanda Ermənistan Rusiya ilə müqavilədə Dağlıq Qarabağın "hava məkanının" qorunması barədə müddəanın olmamasından qəzəbləniblər. Hesab olunur ki, Rusiya bununla Azərbaycana "güzəşt" edib.

Belə bir gərginliklərin fonunda Sank-Peterburq görüşündə hansısa mühüm anlamanın əldə olunacağına inam elə də böyük deyil. Nəzərə almalıyıq ki, bugünlərdə Azərbaycan prezidentinin S.Sərkisyanı kəskin tənqid etməsi işğalçı ölkənin rəhbərliyinə güllə kimi dəymişdi və hətta bu cür sərt mövqeyə görə Çexiya prezidentinə şikayətlənmişdi. Münasibətlərin kəskinləşdiyi bir zamanda isə anlaşmanın əldə olunması mümkün görünmür. Bunu da unutmayaq ki, xalqlar da indiki şərtlər daxilində sülhə hazır deyil. Azərbaycanın isə prinsipial mövqeyi budur ki, torpaqlar işğaldan azad olunmasa, hər hansı sülh razılaşmasından söhbət gedə bilməz. Deməli, Qarabağda daha dəhşətli müharibənin başlayacağını heç kəs istisna edə bilməz. Bunu növbəti "ev sahibi" - Rusiyada da yaxşı bilirlər. Gözləyək, görək Putin iyunun sonunda "Qarabağın açarı"nı verəcəkmi?

YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016

**Biz onları siyasət meydanında görməyə alışmışıq; mitinqlərdə, toplantılarda, partiya iclaslarında iştirak edir, aksiyalarda şüar qışqırır, alovlu nitqlər söyləyir, mediaya qalmaqallı müsahibələr verib gündəmdə qalmağa çalışırlar. Biz onları siyasətsiz, ölkə siyasətini də onlarsız təsəvvür etmirik. Ancaq onların siyasətdən kənar həyatları da var. Əksəriyyəti işsiz olsa da, bir qisminin sənəti və ailəsini dolandıracaq işi var. Biz də elə "Siyasətdən kənar siyasətçi" rubrikasında onlardan yazmaq qərarına gəldik.**

# "Təsərrüfat planlarım müxalifətin yol xəritələrindən daha dəqiqdir"

**Əhməd Oruc:** "Arılar yeddi kilometr ərazidəki çiçəkləri axtarıb tapırlar, ancaq bəzi siyasətçilər burunlarından uzağı görə bilmirlər..."; Arıçılıqla məşğul olan partiya sədrinin təsərrüfatından reportaj



Budəfəki qonağımız milli azadlıq hərəkatının iştirakçılarından biri, Azadlıq Partiyasının sədri Əhməd Orucdur. Onunla Bakı şəhərinin Binəqədi rayonunda, Xocasən qəsəbəsində yerləşən bağında görüşüb söhbətləşdik. Əhməd Oruc artıq üç ildir ki, arıçılıqla məşğul olduğunu dedi. Bizimlə söhbət zamanı arıçılığın, o cümlədən heyvandarlığın, bağçılığın faydalarından, əhəmiyyətindən danışdı. Həmçinin arıya qulluq qaydaları barədə fikirlərini bölüşüb, arıların yuvasını, həyatını cəmiyyətlə bir neçə müstəvidə müqayisə də etdi.

**Ə.Oruc arılarının əksər hissəsini Qusar rayonuna aparsa da, bir neçəsi Xocasəndə bağında qalıb. Hava isinən kimi o, arılar sancmasın deyə əyninə torlu paltarını geyindi, arı yeşiklərini, pətəkləri açaraq əvvəlcə körüklə arılara tüstü verdi.** "Bu, onların beynini dumanlandırmaq üçündür",- deyir Ə.Oruc: "Yoxsa bizi sancarlar, əllərindən qurtarmaq olmaz". Əksər pətəklər köhnədir, Ə.Oruc yeşiyin içindəki mumun yayda əriməsinin qarşısını almaq üçün özü tədbir görməli olub: "Bu plastik çərçivələri yeşiyin, dəmirin üstünə qoyuram ki, yayda içində mum əriməsin. Arı yeşiyini kölgəyə qoymaq olmaz, ancaq gündə olmalıdır".

**Arının çiçək tozu daşıması, onu hansı mərhələlərlə bala çevirməsini açıqlayan Ə.Oruc deyir ki, arıçılıq onda hələ biznes sayılmır:** "Buna hobbi deyə bilərəm. Çünki biznesi genişləndirmək üçün imkan, şərait yoxdur. Bu bağ-bağça da dost-tanış üçündür, heç nəyi - nə balı, nə mer-meyvəni satmıram". Arıya çox qulluq tələb olunmadığını vurğulayan Ə.Oruc deyir ki, artıq arıları ailəsinə yetəcək qədər bal da verir: "Onları bəsləmək üçün mütəxəssislərlə də məsləhətləşirəm. Arıçılıqla dolanan ailələr var, onlardan da məsləhət alıram, çətinlik olanda zəng edib soruşuram. Bir də Qulamhüseyn Əliyev adlı müəllifin min səhifəlik kitabı var ki, onu da oxuyuram. Bu, partiya sədri Qulamhüseyn deyil".

**"Arılar kiçik hökumətdir, amma demokratiyasız..."**

"Arılar kiçik hökumətdir",- **deyir Ə.Oruc, amma demokratiyası olmayan hökumət:** "Arıların strukturunu elm tam müəyyənləşdirə bilməyib. Onların idarəetmə sistemini cəmiyyətə gətirə bilsək, indiki cəmiyyətdən tamam fərqli bir cəmiyyət olar. Onların cəmiyyətində hər şey nizamlıdır, proqramlaşdırılıb. Arılar müəyyən müddət üçün yaranır, yaşayırlar. Ana arı 3-4 il yaşayır. Qidalanması da fərqlidir, yalnız arı südü ilə qidalanır. Arı südünün kiloqramı 15 min manatdır, asan əldə olunan məhsul da deyil. Adi arılar, işçi arılar 40 gün yaşayır. On səkkiz günə yumurtadan əmələ gəlir, 40 gün yaşayır, 40 günün də 3 günündə yuvalarını təmizləyirlər. Onlar bir gün gözətçilərin yanına gedib müşahidə aparırlar. Bir gün ərzində kəşfiyyatçı arılar vasitəsilə sahəni öyrənirlər. On gün sonra başlayırlar bal gətirməyə. Müəyyən qismi nektar gətirir, nektarda balın miqdarı on-on iki faiz olur. Onu şanın divarından asırlar, arılar qanadlarını yelpikləməklə onu qurudurlar, sonra gətirib arı şanına hörürlər. Yumurtalara baxan arılar ayrıdır, anaya xidmət edənlər ayrıdır. Arılar yeddi kilometr ərazidən qoxuları bilirlər, çiçəkləri axtarıb tapırlar, ancaq cəmiyyətdə bəzi siyasətçilər burunlarından uzağı görə bilmirlər. Bir balaca yeşiyin içində 50 min arı iş bölgüsü aparır. Hamısı işləyir, axırda məhsul gətirir. Arılar canlı varlıqların özünü idarə etməsinin, yaşamı tapmasının möcüzəli halıdır. Onlarda, məncə, demokratiya yoxdur. "Arı pisini boğan kimi boğur",- kimi ifadə var el arasında. Onlarda kapitalizm də deyil, qanunların diktaturasıdır".

**"Arı ailəsinin idarəetmə sistemini cəmiyyətə gətirə bilsək, indiki cəmiyyətdən tamam fərqli bir cəmiyyət olar"**

Bununla belə, ölkədə arıların cəmiyyəti kimi cəmiyyətin qurulmasının tərəfdarı deyil Ə.Oruc: "İnsanlar arıdan fərqli olaraq liberal təfəkkürə malik, illüziyalar qurmağa meyilli, tamam başqa prinsiplərlə qurulmuş canlıdır. İnsanlar cəmiyyətdə müəyyən qadağalardan kənar işlənilən şeyi edə bilərlər. Arzusunda olduğumuz liberal cəmiyyət əslində qısa desək, budur. Nə qadağan olunmayıbsa, o, mümkündür, onu edə bilərsən. Bizdə hökumətin funksiyalarının kifayət qədər kiçildilməsi, yalnız hansı məsələlər birgə yaşayışa mane olur, onların ortadan götürülməsi, onlara qarşı cəza tətbiqi nəzərdə tutulur. Ancaq məncə, arılarda elə deyil. Arılarda yalnız sırf proqramlaşdırma əsasında, təbiətdən asılı olaraq gündəlik özünün funksiyaları var, özlərinin gördüyü işlər var, daha çox diktaturaya yaxındır, avtoritet də yəqin ana arıdır. Müşahidə edəndə görürsən ki, onun bala qoymaqdan başqa heç bir funksiyası yoxdur. Bir ana arı 3-4 il yaşayır, bu müddət ərzində 120 minə yaxın bala qoya bilir".

**"Arılar da qiyama qalxırlar, çünki..."**

**Ə.Oruc deyir ki, arı ailəsində də tez-tez mübarizələr olur, həm də daha çox yay aylarında:** "Yay aylarında yeşikdə ana arıların savaşı olur. Bir yeşikdə ikinci ana arı peyda olursa, mübarizə başlayır, döyüş olur və uduzan arı pətəyi tərk edir. Qiyamda qalib gələn ana arı isə pətəkdə qalır. Uduzan arı çıxarkən, öz tərəfdarlarını da aparır. Onlar yaxınlıqda bir ağaca qonurlar, kəşfiyyatçı arılar bir neçə saat ərzində ailənin hara yerləşməyi ilə bağlı kəşfiyyat aparır. Arılar topa şəklində bu müddətdə budaqdan asılı qalırlar. Sonra uyğun yerə gedirlər. O vəziyyətdə onları tuta bilsən, başqa pətəyə sala bilərsən. Köç vəziyyətində arılar vurmurlar, sancmırlar adamı. Pətəkdən qaçanda isə çinədanlarında ümumilikdə 4-5 kiloqram bal aparırlar. Bilirlər ki, müəyyən müddət ac qala bilərlər, buna görə səfər azuqəsi aparırlar. Ona görə asıldıqları budaq ağırlıqdan az qalır qırılsın".



**"İqtisadi imkanlar olsa, işi genişləndirmək olar"**

**Ə.Oruc üç ildə paytaxtda keçirilən bal yarmarkasına çıxmayıb. Səbəb baldan başqa digər arıçılıq məhsulu istehsal edə bilməməsidir. Həmin məhsulların alınma texnologiyasını bilsə də, deyir etmək üçün imkanlar məhduddur. Dövlətin sahibkarlara dəstəyindən danışan Ə.Oruc, bunun yox səviyyəsində olduğunu vurğuladı.** "Biznesi genişləndirmək istəyərəm. Ancaq kredit almaq mümkün deyil. Hakimiyyət hər məsələdə hər vasitə ilə imkanlarımızı daraltmağa çalışır. Bir neçə il əvvəl ev tikməyimə nə qədər maneçilik olub. Buna görə indi kredit üçün müraciət etməmişəm. Amma iqtisadi imkanlar olsa, işi genişləndirmək olar. Biznesə, kiçik sahibkarlara dəstək olsa, ölkənin meyvəyə tələbatını bir neçə sahibkar ödəyə bilər. Məsələn, baxın, təkbaşıma bu boyda bağ salmışam, 16-17 ildir qulluq edirəm. Bu, üçüncü bağımdır. Texnika, suvarma vasitələri, normal texnologiya olsa, sahibkarlara dəstək olsa, bu cür meyvə bağları salıb, inkişaf etdirmək olar".

Ə.Oruc uzun illər ferma da saxlayıb, ancaq sonradan bu işi də buraxmalı olub: "Fermanı da böyüdə, işi genişləndirə bilmədim. Üç ildir, təsərrüfatı ləğv etdim, çətinlik oldu, 12-13 il idi ferma saxlayırdım. Ancaq gəlir gətirmədi, məhsulları bazara çıxarmaq mümkün olmadı və sair. Siyasətçi olmağın bu mənfi cəhəti də var, siyasətçinin halal zəhmətlə, təsərrüfatla məşğul olmasını hərə bir cür yozur. Çoxları hesab edirlər ki, siyasətçi mal-heyvan saxlamaz, yalnız intellektual əməklə məşğul olmalıdır. Bilmir ki, intellektual əməklə məşğul olmaq üçün mütləq fiziki işlə də məşğul olmalısan, hobbilərin olmalıdır səni ondan ayırmaq üçün. Daim intellektual əməklə məşğul olan insan bir-iki il sonra psixoz vəziyyətə düşər, dəli olar. Mən bu işlərə intellektual əməkdən bir qədər aralanmaq üçün vasitə kimi baxıram. İxtisasca riyaziyyatçıyam, hobbilərim fikrimi bir az yayındırmaq üçündür. Bu işləri etməyə bacarıq lazımdır, o da çoxlarında yoxdur".

**"Mənim təsərrüfatla bağlı planlarım müxalifətin hazırladığı yol xəritələrindən daha dəqiqdir"**

**Ancaq müxalifət nə zamansa hakimiyyətə gəlsə, Ə.Oruc bağda dincəlməz. Bunu özü deyir:** "1988-ci ildə meydan prosesinə qatılmasaydım, o vaxt Aqrarsənaye Birliyində idarə rəisi işləyirdim. Sonra qəzetlərə gəldim, indiki müxalifət çevrəsində o zaman mən səviyyədə, vəzifədə olan adam olmayıb. Sonra AXC Rəyasət Heyətinin üzvü oldum, ancaq hakimiyyətə gələndə mənə çox aşağı vəzifələr verdilər. Heç zaman hansısa qruplaşmanın üzvü olmamışam. 1988-ci ildə prosesə, meydana xalq hərəkatından gəlmişəm. Bizim çağırışımızla minlər meydana çıxdı. İndi artıq meydandan çəkilə bilmərəm. Bu, mümkün deyil. Bu missiyaya mən də qoşulmuşam. Mən bir haqq yoldayam, qonşu-qohumların uşaqları, gənc nəsil mənə diqqətlə, fikrimə hörmətlə yanaşırlar. Görürlər ki, oğru-quldur deyiləm, halal adamam. Belə adamlar cəmiyyətdə sıfır həddindədir. Bundan sonra özüm üçün yaşamaq alınmaz".

**Ə.Oruc geniş bağını, çeşidli meyvə ağaclarını da bir-bir bizə göstərir:** "Armud, alça, neçə növ gilas, neçə növ tut var. Altı növ əncir yetişdirmişəm, nar nə qədərdir. Neçə ağacı özüm calaq etmişəm, gəlin, baxın. Bağbanın gördüyü işə baxmayanda, inciyir",- deyə-deyə Ə.Oruc bağı iki dəfə dövrə vurur, bütün ağaclar haqqında məlumat verir və bağı, təsərrüfatı ilə bağlı planlarından da danışır... Və zarafatla deyir ki, həmin planlar müxalifətin hazırladığı yol xəritələrindən daha dəqiqdir... "Bütün layihələrimi, təsərrüfatla bağlı işlərimi tək özüm müəyyənləşdirə bilirəm. Qərarı şəxsən özüm verirəm, istənilən qərarları qəbul edə bilirəm. Birmənalı şəkildə də müsbət nəticələri olur. Müxalifət düşərgəsində isə qərarları konsensus əsasında veririk, çox zaman istəmədiyim qərar olur. Buna görə də siyasətdə istədiyimiz nəticəni ala bilmirik"...

❑ **Röya RƏFİYEVA**

**Fotolar müəllifindir**





YENİ MÜSAVAT
N 129 (6450) 14 iyun 2016





# GMO məhsulları: onları ölkəmizə kimlər gətirir?

## Eyyub Hüseynov: "Azərbaycanda GMO əkinçiliyi də var; bazarı qorunmayan, laboratoriyası bu gündə olan ölkədə..."

**Ölkəmizdə Genetik Modifikasiya Olunmuş (GMO) məhsulların satışı, onların toxumunun ölkəmizə gətirilməsi qanunla qadağandır. Cinayət Məcəlləsində genetik modifikasiya olunmuş bitkilərin ölkəyə gətirilməsi və ölkədə istehsalı aşkarlanarsa, 3 min manatdan 9 min manata kimi cərimə və ya 2 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub.**

Ancaq bu qadağaya məhəl qoyan yoxdur. Bu gün bazarlarda kifayət qədər GMO məhsullarının satışına rast gəlmək mümkündür. Bir müddət əvvəl Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov mətbuata açıqlamasında ölkədə GMO məhsullarının satıldığını qeyd etmişdi. O, bazarlarda satılan məhsulların əksəriyyətinin Türkiyədən gətirildiyini və geni dəyişdirilmiş məhsullar olduğunu deyib. 8-ci kilometr və "Yaşıl bazar"da apardığımız müşahidələrdə bir çox məhsulların Türkiyə və İrandan gətirilmə olduğunu və bu məhsullarında GMO olma ehtimalının böyük olduğunu deməyə əsas verirdi.

Söhbətləşdiyimiz satıcıların bir qismi bunun mümkün olmadığını, bu barədə məlumatsız olduğunu desələr də, əksəriyyət bunun mümkün ola biləcəyini söylədi. Kartof satıcısı 3 növ - İran, Gədəbəy və Türkiyədən gətirilmə kartof satdığını deyirdi. Hər üç kartofun qiyməti və görünüşü fərqli idi. İrandan gətirilən kartofun gec xarab olan olduğunu deyən satıcı bunun geni dəyişdirilmiş kartof ola bilmə ehtimalını vurğuladı. Məhərrəm adlı meyvə satıcısı isə vaxtından əvvəl yetişən meyvələrin də müxtəlif üsullarla ərsəyə gəldiyini dedi: "Məsələn, iki cür çiyələk var, balaca və ovucumuz boyda. Satmağıma baxmayaraq, bu böyük çiyələyin qatqılarla əmələ gəldiyini bilməmək üçün kor olmaq lazımdır".

Qeyd edək ki, GMO məhsullar bir orqanizmdən digərinə DNT köçürmək, yaxud bir orqanizmə aid DNT-nin biotexnologiya vasitəsilə dəyişdirilməsi deməkdir. Bəzən məhsulların genini dəyişməklə onu mövcud olduğu ərazinin şərtlərinə uyğunlaşdırırlar. Məsələn, Arktikadakı bir balığın soyuğa müqavimət geni bir çiyələyə köçürüləndə soyuğa daha dözümlü bir çiyələk əldə edilmiş olur. GMO məhsulları insanların sağlamlığına ziyandır və ağır fəsadlara apara bilər. Bir çox ölkələrdə GMO məhsullarının satışı qadağan deyil. Ancaq bu ölkələrdə bu cür məhsulların üzərində GMO olduğu qeyd edilir, daha Azərbaycandakı kimi gizlin satılıb əhali aldadılmır.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov ölkədə bunu aşkara çıxaracaq normal bir ekspertizanın olmadığını dedi:** "Azərbaycanda ölkə prezidenti tərəfindən ardıcıl olaraq GMO-nu qadağan edən qərarlar qəbul edilir. Azərbaycan BMT-nin ətraf mühitin biomüxtəlifliyinin qorunması haqda sənədə qoşulub. Azərbaycana GMO toxumunu gətirənlərə 50 min manatdan yuxarı cərimə və həbs də nəzərdə tutulur. GMO-nun qarşısını almaq üçün Eldar İbrahimovun böyük xidməti olub. Lakin Azərbaycanda normal ekspertiza yoxdur. Bu ilin noyabr ayında Braziliyadan GMO malları aldım. Orada GMO məhsulları satırlar, amma üzərinə bu malın GMO olduğu qeyd edilir. İstehlakçıya da seçim hüququ verilir ki, istəyən alsın, istəməyən yox. Mən bu məhsulu alıb anonim qablara doldurdum. Bir hissəsini Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin laboratoriyasına, bir hissəsini də gömrük laboratoriyasına verdim. Metrologiya və Patent üzrə Dövlət Komitəsinin laboratoriyası dedi ki, bu malda GMO var. Gömrük laboratoriyası isə dedi ki, bu məhsulda GMO yoxdur. Mən Azərbaycanın qapısında olan gömrük laboratoriyasını bununla test etdim. Məlum oldu ki, GMO Azərbaycana gömrükdən çox rahat bir şəkildə keçə bilər. Amerikanın GMO istehsalçısı olan "Monsanto" şirkəti var. Bu şirkətinin Türkiyədə nümayəndəliyi mövcuddur. "Monsato" şirkətinin Türkiyədəki nümayəndəliyi vasitəsilə Azərbaycana kifayət qədər GMO toxumu və məhsulları ötürülür. Təbii ki, onların üzərinə "Tərkibində GMO yoxdur" yazılır. Bazarı qorunmayan, laboratoriyası bu gündə olan ölkələrdə belə şeylər baş verir. Azərbaycanda da GMO əkinçiliyi var. O bitkidən ki, növbəti dəfə toxum əkəndə çıxmır və yaxud az çıxırsa, bu, artıq GMO-nun birinci əlamətidir. Necə olur ki, ölkəmizdə kilosu 50 manatdan 300 manatadək qarpız toxumu satılır? Təbiət qarpız toxumunu elə yaradıb ki, o, torpağa düşən kimi bar verir. Yəni bunların hamısı əslində "Monsato" şirkətinin istehsal etdiyi "Raundat" servisidir. Onlar GMO-nu yetişdirirlər. Çox təəssüflər olsun ki, ölkəmizdə bunu aşkara çıxaracaq normal bir ekspertiza yoxdur".





**Qurum sədri GMO toxumlarını ölkəyə kimlərin gətirdiyindən xəbərsiz olduğunu dedi:** "Əgər dövlət qurumları, narahat tərəflər ölkə başçısının tapşırıqlarının yerinə yetirilməsini, Azərbaycanın öz üzərinə götürdüyü beynəlxalq öhdəlikləri yerinə yetirməsini istəyirlərsə, laboratoriyaları Azad İstehlakçılar Birliyinin və KİV-lərin üzünə açıq elan etsinlər. Bizim üçün pulsuz ekspertizalar olsun və mən istənilən sayda GMO-nu sübut edərəm. Mən GMO-nu ölkəmizə kimlərin gətirdiyini bilmirəm. Bilsəydim, əlbəttə ki, bunu deyərdim. O şirkətlər ki, deyir mən qarğıdalı əkdim və 4 dəfə artıq məhsuldarlıq götürdüm, çiyələk əkdim, 4 dəfə artıq məhsuldarlıq götürdüm, o toxumların və məhsulların hamısı GMO-dur".

❑ Günel MANAFLI

# Bir neçə rayonu sel basdı

## FHN: "Ən böyük problem işıq və qazla bağlıdır"



**Ölkənin bir çox rayonlarında yağan leysan yağışlar güclü sel sularının yaranmasına səbəb olub. Yaranmış sel suları Tovuz, İsmayıllı, Şamaxı, Göyçayda ciddi fəsadlar yaradaraq evlərə, təsərrüfat sahələrinə böyük ziyan vurub, çoxlu sayda kəndlər arasındakı körpüləri yuyub aparıb, nəticədə kəndlərin rayon mərkəzləri ilə əlaqəsi kəsilib.**

### Telman Zeynalov: "Qurumlar öncədən fikirləşməlidir ki, sabah çay daşanda, sel gələndə nə olacaq?"

Sel sularının yaratdığı fəsadlar daha çox İsmayıllı rayonunda müşahidə edilib. APA-nın məlumatına görə, iyunun 12-də dağlardan gələn sel suları 10-dan çox kənddə böyük fəsadlar törədib, evləri, küçələri, həyətyanı sahələri basıb, meyvə-tərəvəz bağlarını məhv edib, toyuq-cücə və mal-qara arasında tələfatlar var, həmçinin bugünlərdə istifadəyə verilən Qaraməryəm-İsmayıllı avtomobil yolu dağılıb. Daşqın nəticəsində 15 kənd qazsız və işıqsız qalıb. Gələn sel 12 yaşlı Çayqovuşan kənd sakini Səbinə Sadıqovanı aparıb. Təxminən 20 dəqiqə suda qalaraq boğulan qız təcili olaraq İsmayıllı rayon Mərkəzi Xəstəxanasına çatdırıldığından həyatını xilas etmək mümkün olub. 1938-ci il təvəllüdlü Mustafayeva Maya isə qəflətən dağılan evin damının altında qalaraq ağır xəsarət alıb. Rayonun Fövqəladə Hallar Komissiyasının (FHK) sədri Rövşən Ağayev ANS-ə açıqlama verərək bildirib ki, rayonda bərpa işləri aparmaq üçün sel gələn çayları keçmək mümkün olmayıb. Onun sözlərinə görə, İsmayıllıda hazırda ən böyük problem işıq və qazla bağlıdır.

Məlumata görə, Göyçay və Şamaxı rayon icra hakimiyyətlərinin nümayəndələri də seldən zərər çəkən ərazilərə baxış keçiriblər.

**Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, təbii fəlakətin qarşısını almaq mümkün olmasa da əvvəlcədən qabaqlayıcı tədbirlər görmək lazımdır:** "Bu, Allah-təalanın qoyduğu qanundur. Aylardır ki, yağış yağır, torpaq həddindən artıq ağırlaşıb, ona görə də sürüşmələr, daşqınlar əmələ gəlir. Bildiyiniz kimi, payız, yaz aylarında yağıntının miqdarı 30-40 faiz artır. Hazırda yağıntının miqdarı çoxalıb, ona görə də belə proseslər baş verir. Həmişə təxminən 5-7 ildən bir belə hadisələr baş verir. Bunun qarşısını heç nə ilə almaq olmur. Yeganə olaraq, çayların qabağını kəsmək lazımdır. Körpü, yol çəkib çayların məcrasını daraldırlar. Onu daraltmaq deyil, əksinə, genişləndirmək lazımdır. Sel də gəlib yolu dağıdır, körpüləri sındırır. Bunu alimlər, bu və ya digər qurumlar oturub fikirləşməlidir ki, sabah çay daşanda, sel gələndə nə olacaq? Körpüləri hündür tikmək lazımdır ki, sel gəlib onları yuyub aparmasın, pullar da havaya sovrulmasın. Biz öyrənmişik hər şeydə pul qazanmağa. Ancaq qanun var, təbiətlə hesablaşmaq, alimlərlə məsləhətləşmək lazımdır".

**Ekspert sel və daşqını yaradan səbəblərdən də danışıb:** "Təxminən may ayının 15-dən Rusiya ərazisində isti cərəyanla soyuq cərəyan toqquşub. İsti cərəyan buludları buxarlandırır, buludları gətirir, soyuq cərəyan da onları yağışa, qara, doluya çevirir. Rusiyanin cənub hissəsi, Şimali Qafqaz bir aydır ki, yağışın içindədir. Həmçinin Azərbaycanda Böyük və Kiçik Qafqaz bu vəziyyətdədir. 3 aydır ki, dalbadal dağlarda yağış yağır. Hətta bugünlərdə Zaqatalada qar da yağmışdı".

Ekspertlər bildirirlər ki, Azərbaycan əhalisinin təqribən 1 milyon nəfəri sel təhlükəli rayonlarda yaşayır, 18 inzibati rayon ərazisində yerləşən 200-dən artıq yaşayış məntəqəsi, 300 km uzunluğa malik dəmir yolları, 1000 km-dən çox respublika əhəmiyyətli şosse yolları, 100-lərlə körpü və qurğular, çoxlu sayda sənaye və kənd təsərrüfatı obyektləri mütəmadi olaraq sel təhlükəsinə məruz qalır, dağılır, yararsız hala düşür. Subasmalar əsasən Kür və Araz çaylarının aşağı axarında gursululuq dövründə baş verir, Zərdab, Kürdəmir, Sabirabad, Salyan, Neftçala rayon mərkəzlərinə, Əli Bayramlı şəhərinə və 150-yə qədər yaşayış məntəqəsinə təhlükə yaradır.

Xatırladaq ki, 2006-cı ilin mayında Şəki rayonu ərazisinə yağan leysan yağışlar nəticəsində Küngütçaydan keçən qısa müddətli sel nəticəsində 2 nəfər həlak olmuşdu.

❑ Xalìdə GƏRAY

# 200 kəndlinin həll edilməyən kredit fırıldağı

## Həbsdə olan bağça müdirəsinin oyunları

**Qazax rayonunun Xanlıqlar kəndinin sakinlərinin kredit problemi hələ də həll olunmayıb. Sakinlərin adına kredit götürən kənd bağçasının keçmiş müdirəsi Xatirə Əsgərova həbs edilsə də, kənd sakinləri "kredit bataqlığı"ndan xilas ola bilmir.**

X.Əsgərova məsuliyyəti öz üzərindən atmaq üçün götürdükləri pulları Pərvanə Səfərova adlı kənd sakininə verdiyini deyib. Bundan sonra P.Səfərova həbs olunub və 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Lakin adına kredit götürülən kənd sakinləri P.Səfərovanı tanımadıqlarını, krediti yalnız X.Əsgərova üçün götürdüklərini deyirlər.



Xatirə Əsgərova

Kredit fırıldağı ilə bağlı musavat.com-da bir neçə dəfə geniş yazılar dərc edilib. Problem ictimailəşəndən sonra X.Əsgərova saxlanıldı. Onun ifadəsi əsasında isə P.Səfərova həbs edildi.

**Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının Qazax rayon təşkilatının sədri Nizami Haqverdiyev** musavat.com-a hadisənin yeni təfərrüatları barədə məlumat verib.

Onun dediyinə görə, hazırda məhkəmə prosesi davam etdirilir və X.Əsgərova səhhətinin ağır olduğunu əsas gətirərək, ev dustaqlığına çıxmağa çalışır: "Bütün sübutlar, zərərçəkmişlərin ifadələri göstərir ki, Pərvanə Səfərovanın heç bir günahı yoxdur. Bütün kreditlər Xatirə Əsgərovaya verilib. Lakin Xatirəni məsuliyyətdən yayındırmağa çalışırlar. Bu işin əsas günahkarlarından biri də "Zaminbank"ın Qazax rayon şöbəsinin müdiri Məzahir Mirzəyevdir. Vətəndaşların adına krediti təşkil edən də məhz odur. Ancaq məhkəmə proseslərində onun adının çəkilməsinə icazə verilmir. Məzahir də onun üstünə şikayətə gedən sakinlərə deyir ki, mənə heç kim, heç nə edə bilməz. Lazım olan yerlərə pulumu vermişəm. İş mən istəyən kimi də həll olunacaq".

**N.Haqverdiyev deyir ki, problem ictimailəşdiriləndən sonra bəzi sakinlərin kreditlərinin bir hissəsi bağlanıb, bəzilərindən alınan nağd pullar isə geri qaytarılıb:** "Ümumilikdə 230 nəfər zərərçəkmiş var. Ancaq bunların çox cüzi bir hissəsinin problemi həll olunub. Xatirənin nağd pul aldığı kənd sakinlərinin pulunun bir hissəsi qaytarılıb. Rayon prokurorunun köməkçisi həmin pulları sakinlərə verib. Amma bu pulu haradan və kimdən alıblar, bilinmir. Pərvanə Səfərovanı çox adam tanımır. Ancaq onun barəsində həbs-qətimkan tədbiri seçildi və dərhal iş kəsildi. Hamı bilir ki, o, günahsızdır.

Başqa maraqlı bir məqam da var, Xatirə Əsgərova məhkəmədə dedi ki, o, sadəcə, sakinlərin adına kredit təşkil edib. Qarşılığında isə ona ancaq faiz verilib. Yəni pulların onda olmadığını deyir. Xatirənin kürəkəni icra hakimiyyətində işləyir. Onun ikimərtəbəli obyektləri var. İcra hakimiyyətindən aldığı maaşla bunu necə əldə etmək olar? Camaat da belə düşünür ki, bu obyektlər məhz onlardan alınan pulların hesabına tikilib. Camaat çıxılmaz vəziyyətdə qalıb. Bəzilərinin maaş kartı dondurulub, bəziləri məhkəməyə verilib. Bir neçə nəfəri Məzahir Mirzəyev həbs etdirdi. Ancaq camaatda pul yoxdur. 7-10 günlük həbsdən sonra məcbur olub buraxdılar".

Xatırladaq ki, X.Əsgərova kənd sakinlərinin əksəriyyəti ilə qohum olub. İnsanların ona olan etimadından sui-istifadə edərək onların adlarına "Zaminbank", "Beynəlxalq Bank", "Kredaqro" Qeyri-Bank Kredit Təşkilatı, "Finca-Azerbaijan" Qeyri-Bank Kredit Təşkilatı və "Kapital Bank"ın Qazax şöbələrindən kredit götürüb. Hətta bəzi kənd sakinlərinin adına bu bankların hamısında kredit rəsmiləşdirilib.

2012-ci ildən kreditləri ödəyə bilməyən X.Əsgərovanın əməlləri ifşa olunarkən o, aldığı pulu Pərvanə Səfərova adlı Qazax rayon sakininə verdiyini deyib. Bununla da məsuliyyətdən yayınmaq istəyib.

Sakinlərin əksəriyyətinin "Zaminbank"a borcu var. Bankın Qazax rayon şöbəsinin müdiri Məzahir Mirzəyev onlara hansı yolla olursa-olsun, kreditləri ödətdirəcəyini deyir.

Qeyd edək ki, hazırda P.Səfərova və X.Əsgərova həbsdədir. Qazax Rayon Polis Şöbəsinin istintaq bölməsində Cinayət Məcəlləsinin 178.2.2-ci (dələduzluq) maddəsi ilə açılan cinayət işindən sonra P.Səfərova və X.Əsgərova həbs ediliblər. P.Səfərova Gəncə Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. X.Əsgərovanın məhkəmə prosesi isə davam etdirilir.

❑ **İlkin MURADOV**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələ qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

## "Bakcell"dən Klass abunəçilərinə növbəti fayda: bundan sonra istifadə etmədiyiniz internet, SMS və dəqiqələr növbəti aya əlavə ediləcək

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti Klass tarifində olan abunəçilərinə ölkədaxili dəqiqələrin, internet trafikin və SMS-lərin istifadə olunmayan hissəsinin növbəti aya keçirilməsini mümkün edən yeni təklifi təqdim edib.**

**Belə ki, aylıq abunə haqqını vaxtında ödəyən Klass abunəçilərinin cari ay ərzində istifadə etmədikləri ölkədaxili dəqiqələri, internet trafiki və SMS-ləri növbəti ayın paketinə əlavə ediləcək.**

**"Abunəçilərimizi dəyərləndirdiyimiz üçün təqdim etdiyimiz məhsul və xidmətlərimizin siyahısına davamlı şəkildə innovasiyalar əlavə edirik. Bir müddən bundan öncə Klass tariflərində olan abunəçilərimizi Whatsapp-dan pulsuz istifadə və 3 dəfədən çox internet trafiki ilə sevindirdik. Biz Klass tariflərimizə daha çox dəyər əlavə etməyə qərar verdik və indidən etibarən abunəçilərimizin sadiqliyi müqabilində onların istifadə etmədiyi ölkədaxili dəqiqə, SMS və internet trafikini növbəti ayın balansına əlavə edəcəyik. İnanırıq ki, yeni təşəbbüsümüz abunəçilərimiz tərəfindən müsbət qarşılanacaq və xidmətlərimizdən daha çox faydalana bilmələri üçün onlara yeni imkanlar yaradacaq" - deyə, "Bakcell" şirkətinin baş marketinq və satış direktoru cənab Fedja Hadziç bildirib.**

**İstənilən Klass tarifinə qoşulma pulsuz şəkildə həyata keçirilir. Aylıq abunə haqqı cəmi 5 manatdan başlayan müxtəlif Klass paketlərinin üstünlükləri barədə ətraflı məlumatı bu keçiddən istifadə edərək əldə etmək olar: http://www.bakcell.com/klass/az/klass**

**Klass tarifində olan abunəçilərin balanslarından seçdikləri paketə uyğun aylıq abunə haqqı tutulur və bu məbləğ müqabilində onlara ölkədaxili dəqiqələr, internet trafiki, SMS və Whatsapp-dan pulsuz istifadə etmək imkanı təqdim edilir. Bu aylıq abunə haqqı hər ay müəyyən tarixdə abunəçilərin balansından sistem tərəfindən avtomatik şəkildə çıxılır. Bunu nəzərə alaraq yuxarıda qeyd edilən təklifdən tam faydalanmaq istəyən abunəçilər həmin tarixdə aylıq abunə haqqının çıxılması üçün nömrələrinin balansında kifayət qədər vəsait saxlamalıdırlar.**

## Bir gündə üç uşaq suda batıb öldü

**Abşeronda su kanalında batan şəxsin cəsədi tapılıb. «Trend» Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadən xəbər verir ki, Abşeron rayonu, Ceyranbatan qəsəbəsində su kanalında çimərkən batmış 2000-ci il təvəllüdlü Xəlilov Rəşad Mahir oğlunun cəsədi Fövqəladə Hallar Nazirliyinin Dövlət Sularda Xilasetmə Xidmətinin dalğıc-xilasedicilərı tərəfindən tapılaraq sudan çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.**

Əməliyyat saat 06:33-də başa çatıb.

Biləsuvarda da azyaşlı uşaq faciəli şəkildə ölüb.

Rayon polis şöbəsindən APA-ya verilən məlumata görə, hadisə rayonun Amankənd kəndində qeydə alınıb. Kənd sakini 2 yaşlı Nuru Hüseynli yaşadığı evin yaxınlığından keçən arxa düşərək boğulub.

Salyan rayonunda da azyaşlı uşaq çaya düşərək boğulub.

"Report"un Aran bürosunun məlumatına görə, hadisə Ələt-Astara magistral yolu üzərində yerləşən Akkuşa çayında baş verib. Salyan rayon sakini Alxas Sadiq oğlu Mirməmmədov çayda çimərkən boğulub.

Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin (FHN) xilasedicilərı cəlb olunub. Azyaşlının axtarışları davam edir.

Faktla bağlı araşdırma aparılır.

## Qobustan-Şamaxı yolunda sürüşmə təhlükəsi

**"Ölkə ərazisində bütün sürüşmə zonalarında yüksək fəallıq qalmaqdadır". Coğrafiya İnstitutunun direktor müavini Elbrus Əlizadə APA-ya açıqlamasında deyib ki, xüsusilə təhlükəli vəziyyət Böyük Qafqazın cənub-şərq hissəsində - Şamaxı, İsmayıllı, Ağsu, Xızı, Şabran, Siyəzən və Quba, habelə Lerik-Lənkəran-Yardımlı və Gəncə zonasındadır.**

Onun sözlərinə görə, bu sürüşmə sahələrində yüksək fəallıq var: "Bakı-Şamaxı yolunun Qobustan-Şamaxı hissəsində (100 kilometrliyindən 120 km-dək olan hissə) bir neçə yerdə sürüşmə davam edir. Artıq 106-107-ci km-də sürüşmə fəal surətdə yola doğru hərəkət edir. Orada texnika olsa da, sürüşmə sahələrində fəallıq qalır. Sürüşmə təhlükəsi və fəallıq ən azı 1 həftə qalacaq. Sürüşmə təhlükəsi tezliklə sabitləşməyəcək".

## Elan

**İlyasov Rafiq Sabir oğlunun adına olan Bakı şəhəri, Rəsulzadə qəsəbəsi, Hacıbababəyov küçəsi, ev-3, mənzil 15-in sənədləri itdiyi üçün etibarsız sayılır.**

# “Bìr aktyorun teatrı” - Ronaldoya baxaq...

**“Avro-2016"da bu gün F qrupunun komandaları da mübarizəyə qoşulur. Saat 20:00-da Avstriya-Macarıstan, 23:00-da isə Portuqaliya-İslandiya qarşılaşması başlayacaq.**





## Portuqaliya bu gün ilk oyununda İslandiya millisi, Avstriya isə Macarıstanla qarşılaşır

Portuqaliyanın və onun forvardının bəxti yenə gətirib. Fransa çempionatında bəlkə də ən zəif-İslandiya, Macarıstan və Avstriya ilə bir qrupda oynamaq Ronaldoya “suda balıq” kimi rahat olacaq.

Bu gün Sent-Etyendeki “Joffrua Qişar” stadionunda Portuqaliya ilk oyununda İslandiya millisi ilə qarşılaşır.

Müasir dünya futbolunda “güclü”-"zəif" komanda termini işlətmək bir az doğru alınmır, amma “Avropanın Braziliyası” adlandırılan Portuqaliya ilə bugünkü rəqibi arasında bərabərlik işarəsi qoymaq da insafdan deyil.

Portuqaliya millisi haqda yazıları gözdən keçirərək Rusiyanın sportfakt.ru saytında maraqlı bir fikrə rast gəldik. “İndiki Portuqaliya bir aktyorun teatrı hesab edilir. Doğrudan da, Portuqaliya millisinin taleyi böyük ölçüdə bir nəfərin-Kriştian Ronaldonun hansı formada olmasından, əhval-ruhiyyəsindən asılıdır”.

Baş məşqçi Fernandu Santuşun komandası AÇ seçmə mərhələsini birinci yerdə başa vurub. Axı, komandanın seçmə mərhələdə də bəxti gətirmişdi... Rəqiblər xeyli zəifləmiş Danimarka, eləcə də Serbiya və “ölü” Ermənistan idi. Komanda yalnız seçmə mərhələnin ilk oyununda Albaniya millisinə 1:0 uduzub. Həmin görüşdə isə Ronaldo və Paulo Bentu iştirak etməyib...

Fernandu Santuş Portuqaliya millisinə 2014-cü ilin sentyabrında rəhbərlik edir. Santuş Yunanıstan millisindən əvvəl “Portu”, “Benfika” və “Sportinq” komandalarını çalışdırıb. 61 yaşlı məşqçinin komandaya rəhbərlik etməsindən sonra Portuqaliya millisi FİFA-nın reytinqində 8-ci yerə yüksəlib.

“Avro-2012"də Paulu Bentunun rəhbərliyi altında Almaniya, Hollandiya, Danimarka kimi komandalarla mübarizədə qrup mərhələsindən çıxdı, yarımfinaladək irəlilədi və gələcək çempion İspaniya ilə penallaşmada uduzaraq mübarizəni dayandırdı. Portuqaliyanın bu qrupda birinci yer tutacağı ehtimalı böyükdür.

İslandiya üçün “Avro-2016" bu cür mötəbər turnirlərdə debütdür. İslandiya AÇ-yə vəsiqə qazana bilməyən Hollandiya, eləcə də hazırda Fransada olan Türkiyə və Çexiya ilə bir qrupda yer alırdı. İslandiya seçmə mərhələyə ard-arda üç qələbə ilə başlamışdı. Komanda Türkiyə (3:0), Latviya (3:0) və Hollandiyaya (2:0) qalib gəlmişdi. İslandiya rəqiblərindən də ən az qol buraxan komandadır. Cəmi altı top.

Komandanın aparıcı oyunçusu və kapitanı Aron Qunnarssondur. 27 yaşlı oyunçu milli komandanın əsas lokomotividir. O, meydanda istənilən mövqedə-müdafiədə, yarımmüdafiədə oynamağa qadirdir. Qunnarsson hər top uğrunda meydanda çarpışır ki, bu da hərdən ona cərimə vərəqələrinin göstərilməsi ilə nəticələnir. Aron autdan topu 11 metrlik cərimə zərbəsinə atmağı da sevir ki, bu da onun həndbolçu keçmişindən xəbər verir. O, uzun müddət topu əllə, yoxsa ayaqla oynamaq barədə tərəddüd edib və nəhayət, yaşıl meydanları seçib.





Komandanın baş məşqçisi Lars Laqerbek öz karyerasında hələ ki, ciddi uğur qazanmayıb. Lars 1998-ci ildən İslandiya millisində Tommi Sedeberqin köməkçisi işləyib. 2012-ci ildən isə komandaya rəhbərlik edib.

Komandalara tarixləri ərzində bundan əvvəl iki dəfə-"Avro-2012"nin seçmə mərhələsində qarşılaşıblar. Hər iki oyunda Ronaldonun komandası üstün olub.

Portuqaliyanın müdafiəçisi Sedrik deyib ki, İslandiya ilə oyun asan olmayacaq, çünki komandanın güclü müdafiəsi var. Portuqaliyanın əsas forvardı Ronaldonun isə dərdi başqadır. O, bugünkü oyunda qol vuraraq futbol tarixinə düşmək istəyəcək. Ronaldo bu gün fərqlənərsə o, dörd Avropa çempionatında qol vurmuş yeganə oyunçu olacaq. Ronaldo bu yarışmada tək deyil. Eyni tarixi şans Zlatan İbrahibəyoviçin də var.

### Bir imperiya idilər, indi isə rəqibdilər...

Vaxtilə bir imperiya olan Avstriya-Macarıstan (1867-1918) bu gün rəqib kimi qarşı-qarşıya gələcəklər. “Stad-De Bordo” stadionunda keçiriləcək görüşü fransalı referi Kleman Tryupen idarə edəcək.

Avstriyada futbol 2008-də-bu ölkədə keçirilən Avropa çempionatından sonra daha populyarlaşıb. Meydan sahibləri kimi çempionata birbaşa vəsiqə qazanmış Avstriya Xorvatiya, Polşa və Almaniya milliləri ilə bir qrupda yer alıb və 1 xal toplayaraq qrup sonuncusu olub. Avstriya 2012-ci il Avropa, 2014-cü il mundialında iştirak etməyib.

Avstriya seçmə mərhələnin oyunlarını əla keçirib. İlk turda İsveçlə heç-heçədən sonra komanda ardıcıl doqquz qələbə qazanıb. Marsel Kollerin komandası bu qrupdan Fransaya vəsiqə qazanan Rusiyanı iki dəfə məğlub edib ki, sonda qrup ikincisi olan ruslarla xal fərqi 8 olub.

Komandanın əsas oyunçusu 23 yaşlı David Alabadır ki, o, milli komandada 18 yaşından oynayır. Yarınigeriyalı, yarıfilippinli olan Alaba millinin heyətində 40 oyun keçirib. Nominal olaraq sol kənar müdafiəçi olan Alaba sağ müdafiədə də, yarımmüdafiədə də bacarıqlı oyunçu kimi tanınır. O, “Bavariya” da topladığı təcrübəni mili komandada tətbiq edir.

55 yaşlı Marsel Koller İsveçrə futbol məktəbinin yetirməsidir, “Qrasshopper”də və milli komandada oynayıb. O, məşqçi kimi Almaniyanın “Köln” və “Boxum” komandalarında çalışıb. 2011-ci ildə Avstriya milisinə rəhbərlik edən Kollerə inam böyükdür və onunla müqavilə müddəti də AÇ ərəfəsi daha üç il uzadılıb.

Avstriyanın qrupda birinci yer tutacağını, hətta yarımfinaladək irəliləyə biləcəyini söyləyənlər də var.

Macarıstan millisi Fransaya vəsiqəni Norveçlə keçid matçında qazandığı qələbələrlə təmin edib. Macarıstan millisini almaniyalı mütəxəssis Bernd Ştrok çalışdırır. 53 yaşlı Ştrok Qazaxıstan millisini də çalışdırıb. “Avro-2012"nin seçmə mərhələsində ardıcıl 4 məğlubiyyətdən sonra Qazaxıstan millisindən uzaqlaşdırılıb. Ştrok Macarıstan millisinə 2015-ci ildən başçılıq edir. Macarıstan AÇ seçmə mərhələsində keçirdiyi 10 oyunda qapılara cəmi 11 top vurub. FİFA-nın son reytinq cədvəlində Macarıstan 20-ci yerdədir.

Avstriya-Macarıstan indiyədək 138 dəfə qarşılaşıblar. Bu oyunlarda macarlar 66 dəfə qalib gəlib, 40 oyunda isə uduzublar. Belə mötəbər yarışmada isə ilk və son dəfə 1934-cü il dünya çempionatında qarşılaşıblar. Oyun Avstriyanın 2:1 hesablı qələbəsi ilə bitib.

Komandanın ən təhlükəli oyunçusu 29 yaşlı Balaj Djudjak Rusiyanın “Anji” və Moskva “Dinamo” sunda oynayıb.

Sürətli sol yarımmüdafiəçisi Balaj millinin ən təcrübəli futbolçularındandır. O, 2007-ci ildən bəri 80 oyunda millinin formasını geyinib. Avstriya milisinin yarımmüdafiəçisi Yakob Yançer Bolajın istənilən rəqib komanda üçün təhlükəli olduğunu deyib: **“Onun sağ ayaqla güclü zərbəsi var, standart vəziyyətlərdən də təhlükəlidir”.**

❑ **Nazim SABİRÖĞLU**









# YENİ MÜSAVAT

## Son səhifə

N 129 (6450) 14 iyun 2016




## Səkkizinci mərtəbədən yıxıldı, sağ qaldı

Qırğızıstandan İstanbula gəzməyə gələn 17 yaşlı Alina Ruslanova qonaq olaraq qaldığı binanın 8-ci mərtəbəsindən müvazinətini itirərək aşağı düşüb. Xoşbəxtlikdən aşağı mərtəbələrdən birindəki dəmirin üstünə düşən qız qolunda və belindəki qırıqların xaricində hər hansı xəsarət almayıb. Hadisə yerinə gələn polis isə üzə çıxarıb ki, həqiqətən də 17 yaşlı qızın yerə yıxılmasına özünün diqqətsizliyi səbəb olub. Belə ki, hadisə baş verən zaman evdə heç kim olmayıb. Qırğız qız isə binanın həyətində yerləşən hovuza diqqətlə baxarkən müvazinətini itirib.



## Zorlanan qadını cərimələdilər

**Qətər məhkəməsi nikahdan kənar seks əlaqəsində olmaqda ittiham olunan hollandiyalı qadına şərti cəza kəsib. BBC-nin xəbərinə görə, bundan əvvəl həmin qadın polisə zorlandığını bildirmişdi.**

22 yaşlı qadına eləcə də 824 dollar (1245 AZN) məbləğində cərimə kəsilib və o, deportasiya olunacaq.

Qadının vəkili bildirib ki, Doha hotelində onun içkisinə yuxu dərmanı qarışdırılıb. Nəticədə o, yuxuya gedib və bir də ayılanda görüb ki, özgə mənzildədir və zorlanıb.

Hadisə bu ilin mart ayında baş verib. Bu qadına təcavüz etməkdə ittiham olunan kişi seks əlaqəsinin qarşılıqlı razılıq əsasında baş verdiyini bildirib. Həmin adama nikahdankənar cinsi əlaqəyə girdiyinə görə 100 şallaq cəzası verilib. Daha 40 şallaq cəzası isə alkoqol qəbul etdiyinə görə kəsilib.

Qadın 3 ay bundan əvvəl şikayət etdikdən sonra həbs altında saxlanılıb, lakin hadisə yalnız ötən həftəsonu - ailəsi Hollandiya mediasına danışandan sonra aşkar olunub.

# 8 yaşı var, 70 əməliyyat keçirib

**Bursada 3 yaşında ikən hamamda tapıb içdiyi təmizlik maddəsinə görə daxili orqanları zədələnən Kayra Yaman son 5 ildə Bursa və Ankarada 30, müalicə üçün getdiyi Amerikada isə 40 dəfə əməliyyat olunub. Bütün bu əməliyyatlara baxmayaraq, uşaq özəl bir cihaz sayəsində qidalana bilir. Təmizlik maddəsini içəndən sonra halı pisləşən, ailəsi tərəfindən aparılan xəstəxanalarda "yaşamayacaq" deyilən Kayra isə yaşamağa davam edir. Kayra Amerikaya getdiyi zaman çəkisi 16 kilo olsa da, 1 il içində 27 kiloya çatıb. Ailə uşaqlarının müalicəsini Türkiyədə davam etdirəcək. Uşağın qida borusunun genişlənməsi üçün yeni əməliyyat keçiriləcək.**



# Ürəyin dərmanı musiqidir

**Serbiyadakı Nis Universiteti alimlərinin apardığı araşdırmaya görə, instrumental musiqi ürəyi gücləndirir, ürək xəstələrinin daha tez yaxşılaşmasını təmin edir. Bundan başqa, sevilən musiqini dinləmək beyində endofrin hormonunun artımına səbəb olur ki, bu da ürəyin fəaliyyətinə müsbət təsir edir. Araşdırma çərçivəsində ürək xəstəsi olan 74 nəfər 3 qrupa ayrılıb və ilk qrupdakılar 3 həftə boyunca aerobika dərslərinə göndərilib. İkinci qrupdakılara dərslərə qatılmaqla yanaşı, gündə yarım saat musiqi dinləmələri tapşırılıb. Son qrupdakılar isə sadəcə musiqi dinləyiblər.**

3 həftə sonra idmanla məşğul olan və musiqi dinləyən xəstələrin ürəyindəki problemlərin böyük ölçüdə düzəldiyi müəyyənləşib. Alimlərin araşdırmasına görə, musiqi dinləyərək idmanla məşğul olmaq ürək fəaliyyətinin yaxşılaşmasına, eləcə də xəstələrin daha asan düzəlməsinə səbəb olur. Alimlər "ideal musiqi"nin hələ tapılmadığını desə də, insanlarda pozitiv hisslər oyadan, onların özünü yaxşı hiss etməsinə, rahatlaşmasına səbəb olan musiqilərin olduğunu bildirib.





## 10 yaşlı uşaq 41.9 kiloluq kələm yetişdirdi

**Alyaskanın 10 yaşlı sakini Kinan Dinkel 41.9 kilo ağırlığında kələm yetişdirib. O, bu kələmi yarmarkada nümayiş etdirərək orda keçirilən müsabiqənin əsas mükafatçısı olub. Bu kələm sayəsində 10 yaşlı uşaq 2 min dollar qazanıb. Tədbirin təşkilat komitəsindən bildiriblər ki, son 18 ildə ilk dəfədir ki, bu həcmdə kələmlə qarşılaşıblar və onun 10 yaşlı uşaq tərəfindən yetişdirilməsi də olduqca təəccüblüdür. Yarmarkanın administrasiyasından isə deyiblər ki, kənd təsərrüfatı üzrə keçirilən bu şouda ayrıca yeniyetmə şousu da var və məhz bu səbəbdən Kinanın kələmini şounun əsas nömrələrindən biri elan ediblər. Uşağın yetişdirdiyi kələmin hansı sortdan olduğu hələ dəqiqləşməyib. Lenta.ru saytı yazıb ki, Kinan öz kələminə Bob adını verib. Bobun sonrakı taleyi isə hələ bilinmir.**




**QOÇ** - Yaxşı olar ki, bütün vacib işlərinizi təxirə salasınız. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Ulduzlar əsəblərinizi qorumağı, ümumiyyətlə, maksimum ehtiyatlı olmağı məsləhət görür.

**BUĞA** - Sizin üçün böyük əhəmiyyət kəsb edən şanslar çoxdur. Bu baxımdan günün birinci yarısında qarşınıza çıxan fürsətlərdən əməlli-başlı faydalana bilərsiniz. Göy qübbəsi bəxtinizin gətirəcəyini bildirir.

**ƏKİZLƏR** - Bu gün sizə qarşı təzyiqlər arta bilər. Bu səbəbdən də hər bir addımda tədbirli olmağa çalışın. Hər dedi-qoduya reaksiya verməyin. Etibarına əmin olmadığınız adamlarla iş görməyin.

**XƏRÇƏNG** - İşgüzar sövdələşmələrinizi sürətləndirin. Saat 13-16 arası iştirakçısı olduğunuz hər bir danışıq xeyrinizə yönələcək. Qalan müddətdə isə adi işlərlə məşğul olmalısınız.

**ŞİR** - Bu gün hər hansı riskə getmək yolverilməzdir. Belə ki, istənilən addımınız maneələrlə üzləşdiyindən buna səy də göstərməməlisiniz. Yeni təkliflərə belə tələsik razılıq verməyin.

**QIZ** - Şəxsi büdcənizdə müəyyən artımlar gözlənilsə də, bu təqvimdə mübahisəsiz keçinməyəcəksiniz. Həmkarlarınızla soyuqlaşma ola bilər. "Dinc-yanaşı yaşama" prinsipinə riayət edin.

**TƏRƏZİ** - Uğurlu gün hesab etmək olar. Fəaliyyətlə bağlı nəzərdə tutduğunuz perspektivlərin əksəriyyətini reallaşdıracaqsınız. Nahardan sonra sevindirici xəbərlər gözlənilir.

**ƏQRƏB** - Yeni təkliflər alacağınız gözlənilir. Lakin qəti addım atmazdan qabaq yaxşı-yaxşı götür-qoy etməlisiniz. Gün ərzində əzmkarlığınızı artırmaqla bir neçə sürprizin şahidi ola bilərsiniz.

**OXATAN** - Tabeçiliyində fəaliyyət göstərdiyiniz rəhbərlərlə, həmçinin həmkarlarınızla münasibətləri mülayimləşdirin. Bu, gələcək perspektivlərinizin reallaşmasında əhəmiyyətli rol oynaya bilər.

**OĞLAQ** - İxtiyarınızda olan bu təqvim daha çox uğurlar vəd edir. Amma qarşılıqlı münasibətlərdə güzəştə getməyi də bacarmalısınız. İndiki məqamda zorakılıq heç bir effekt vermir.

**SUTÖKƏN** - Təxminən saat 12-yə qədər əsəblərinizi cilovlamağınız məsləhət görülür. Yoxsa götürdüyünüz öhdəlikləri başa çatdıra bilməyəcəksiniz. Nahardan sonra varlanma ehtimalınız var.

**BALIQLAR** - Olsa-olsa pulla bağlı sevinəcəksiniz. Digər işlərdə isə elə bir uğur gözlənilmir. Son vaxtlar qərarlarınızdakı yanlışlıq sizə başağrısı verə bilər. Məsləhətləşmədən çəkinməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İşləyən qadınlar daha çox şiddət görürlər



**Türkiyənin Ağdəniz Universitetinin hüquq fakültəsinin müəllimi, professor Məhərrəm Kılıç bildirib ki, işləyən qadınlar daha çox zorakılığa məruz qalır: "İşləməyən qadınların şiddət görmə nisbəti 38,7 faiz, işləyən qadınlar arasında şiddət görmə nisbəti isə 40,7%-dir. Evin büdcəsinə bir töhfə verməsinə baxmayaraq, işləyən qadın işləməyən qadından daha çox şiddətə məruz qalır".**

Kılıç qadına qarşı zorakılıqda ailənin rifah səviyyəsinin əhəmiyyətli olduğunu, aşağı rifah səviyyəsində 47 faiz, orta rifah səviyyəsində olanlar 38 faiz, yüksək rifah səviyyəsində isə 26,7 faiz olduğuna diqqəti çəkib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750